Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

7 NOYABR 2019-cu il

№ 198 (4096)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# AZƏRBAYCANLA TÜRKİYƏ ARASINDA 100 MİLYON MANATDAN ÇOX NAĞD PULU FIRLADAN QANUNSUZ «BANK» İFŞA EDİLDİ...

■ səh. 2 ■



## Eldar Əzizov Bakının icra başçıları ilə yeni formatda işə başladı

- Prezident tapşırıqlarından biri dərhal icra edildi...

■ səh. 4 ■





### Oqtay Gülalıyevin şəxsi faciəsini siyasiləşdirənlərə cavab - Mehriban Əliyeva gözlənilən addımı atdı...

■ səh. 8 ■

### Azərbaycanın kənd təsərrüfatının hesabat rəqəmləri arasında ciddi uyğunsuzluqlar aşkarlandı

■ səh. 12 ■

### Paşinyanın iki güclü düşməni - birinə Rusiyadan, digərinə ABŞ-dan açıq dəstək...

■ səh. 10 ■

Azərbaycanın artan hərbi üstünlükləri ətrafında Ermənistanda müzakirələr genişlənir... ■ səh. 9 ■

Rusiya səfiri rəsmi İrəvanın KTMT-də Azərbaycanla bağlı narahatlıqlarını rədd etdi... ■ səh. 6 ■

Tahir Budaqovla Vüqar Səfərli 16 nəfər müsabiqə qalibi jurnalisti müxtəlif məbləğlərdə pulla mükafatlandırdı ■ səh. 3 ■

"Freedom Haus" yenə Azərbaycana qarşı - Ermənistan 13, Azərbaycan 48-ci yerdə... ■ səh. 7 ■

İsraildə saxta "erməni genosi"dinə dəstək başladı - yəhudilərin özlərinə qarşı erməni qətliamı, dost Azərbaycan unudulur?... ■ səh. 10 ■

Radikal müxalif liderlərin son toplantısına xaricdən sifariş... ■ səh. 5 ■

"Qarabağ klanı" ayrıca Qələbə partiyası yaradaraq Paşinyanı devirmək üçün hərəkətə keçdi... ■ səh. 6 ■

Azərbaycanın qeyri-neft sektorunda artım daha dinamik şəkil aldı... ■ səh. 11 ■

"Siyasi meyitlər" bir-birinə can vermək üçün toplaşdı - Əli İnsanovda cəlbedici nə var...

■ səh. 7 ■



İlqar Məmmədovun da partiyası dağılmağa başladı - Aslan İsmayılov İlqar Məmmədovun özünü də istefaya çağırdı

■ səh. 5 ■



Azərbaycanın yol infrastrukturu 141 ölkənin arasında ən öncüllərdən biri oldu

■ səh. 13 ■



Üzümçülük ölkəsi Azərbaycan kişmiş idxal edir, niyə...

■ səh. 12 ■



Azərbaycana daha bir qeyri-obyektiv qiymət - xarici dil bilgilərinə görə 85-ci yer?...

■ səh. 13 ■





## Nazir Vilayət Eyvazov Türkiyə Daxili İşlər Nazirliyinə niyə təşəkkür etdi...

**Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Daxili İşlər nazirinin müavini İsmail Çataklını qəbul edib.**

DİN-in Mətbuat xidmətindən Baki-xeber.com-a verilən xəbərə görə, V.Eyvazov dövlət başçılarının siyasi iradəsi və qarşılıqlı səfərləri nəticəsində dost və qardaş ölkələrimiz arasındakı münasibətlərin daha da dərinləşdiyini məmnunluqla vurğulayıb.

Cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, ölkəmizdə təhlükəsizlik sferasının da möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə xüsusi önəm verildiyini diqqətə çatdıran general-polkovnik Vilayət Eyvazov bu gün Azərbaycan Polisinin, Daxili Qoşunların yüksək peşəkar səviyyədə fəaliyyət göstərdiyini, ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə aparıcı hüquq-mühafizə orqanı kimi öz yerini tutduğunu xüsusi qeyd edib, qazanılmış uğurlarda Türkiyə Jandarm Qüvvələrinin, Türkiyə Polisinin də danılmaz rolunun, xidmətin olmasına diqqət çəkib. Buna görə Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin rəhbərliyinə və bütün mənsublarına təşəkkürünü bildirən Daxili işlər naziri V.Eyvazov Türkiyə Respublikasının Daxili işlər naziri Süleyman Soyluya salamlarını catdırmağı nazir müavinindən xahiş edib.

Səmimi qəbula və ətraflı məlumata görə minnətdarlığını bildirən Türkiyənin Daxili işlər nazirinin müavini İsmail Çataklı respublikamıza ikinci gəlişindən, ölkəmizin sürətli inkişafından, sabitlikdən, əminamanlıqdan, Bakının dünyanın ən gözəl paytaxtlarından, ən təhlükəsiz şəhərlərindən biri olmasından məmnunluğunu diqqətə çatdırıb, qarşılıqlı faydalı işbirliyinin daha da genişlənməsinə bundan sonra da səy göstərəcəyini ifadə edib .

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

## Bakıda erməni mahnısı səsləndirib video paylaşanlar saxlandı...

**Bakıda avtomobilində erməni dilində mahnı səsləndirib video paylaşan şəxslər saxlanıb. Bu barədə "Trend"ə Bakı şəhər Baş Polis İdarəsinin mətbuat xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev məlumat verib.**

Onun sözlərinə görə, təxirəsalınmaz əməliyyat-axtarış tədbirlərilə sosial şəbəkələrdə avtomobilin içərisində erməni mahnısı səsləndirən şəxsin kimliyi müəyyən olunaraq, o saxlanıb. Faktla bağlı, müvafiq olaraq, araşdırmalar aparılır, təfərrüatları öyrənilir.

## Tramp administrasiyası NP-nın Türk dünyası əleyhinə qondarma "soyqırım" qətnaməsinə qarşı çıxdı

**ABŞ Prezidenti Donald Tramp administrasiyası Nümayəndələr Palatasının qondarma "erməni soyqırımı" ilə bağlı qətnaməsinin əleyhinə olduğunu açıqlayıb.**

Baki-xeber.com xəbər verir ki, Vaşinqtonda Türkiyənin başlatdığı "Barış Pınarı" əməliyyatına qarşı çıxıb terror təşkilatı PKK/YPG-ni dəstəkləyənlər Nümayəndələr Palatasında qondarma "erməni soyqırımı" qərar layihəsini və "Türkiyəyə sanksiya" qanun layihəsini səs çoxluğu ilə qəbul etmişdi.

Demokratların təşəbbüsü ilə qəbul edilən qərarlara təxminən bir həftə səssiz qalan Tramp administrasiyasından ilk açıqlama gəlib. "Bloomberg"ə açıqlama verən ABŞ Dövlət Departamentinin yüksək rütbəli rəsmisi Tramp administrasiyasının hər iki qanun layihəsinə qarşı olduğunu söyləyib. Rəsmi "erməni layihəsi"nin uğursuz vaxtda qəbul edildiyini deyib və bu qərarların NATO müttəfiqi Türkiyəni cəzalandırma məqsədi daşıdığını dilə gətirib.

# Azərbaycanla Türkiyə arasında 100 milyon manatdan çox nağd pulu fırladan qanunsuz "bank" ifşa edildi...

**Azərbaycan Respublikasının Baş Prokurorluğunun Mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş məlumatlar əsasında həyata keçirilmiş təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri ilə qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına (vergi uçotuna) alınmadan və xüsusi razılıq (lisenziya) almadan pul vəsaitlərinin müəyyən xidmət haqqı müqabilində qanunsuz olaraq ayrı-ayrı şəxslərdən qəbul olunması və həmin şəxslərin sifarişi ilə üçüncü şəxslərə təhvil verilməsi üzrə xidmət göstərilməsindən ibarət qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olan cinayətkar şəbəkənin qanunsuz əməlləri ifşa edilib.**



Həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri ilə İsgəndərov Rəşad İmran oğlunun 2018-2019-cu illər ərzində faktiki olaraq bank fəaliyyəti ilə məşğul olaraq tanışı Mustafa Kılıç Murat oğlu və digər bir qrup şəxslərlə qabaqcadan əlbir olub Bakı şəhərinin Binəqədi rayonu ərazisində yerləşən ofisində gizli formada qeydiyyatını və mühasibatlığını aparmaqla ona müraciət edən ayrı-ayrı şəxslərdən aldığı müxtəlif məbləğlərdə pul vəsaitini Türkiyə Respublikasında qəbul etməli olan şəxslərə təhvil verilməsini təşkil etməsinə, habelə eyni məqsəd və üsulla həmin ölkədə fəaliyyətgöstərən belə qruplar tərəfindənqəbul edilmiş pul vəsaitlərinin Azərbaycan Respublikasında ayrı-ayrı şəxslərə çatdırılması müqabilində ümumi dövriyyəsi 88 milyon 744 min ABŞ dolları və 6 milyon 110 min Avro təşkil edən (həmin dövrün məzənnəsi ilə ümumilikdə 162 milyon720 min manat) 14 min 553 qanunsuz əməliyyat nəticəsində 1 milyon 344 minmanat məbləğində pul vəsaitini gəlir qismində əldə etməsinə, eyni zamanda həmin pul vəsaitini Kılıç Mustafa və başqaları ilə aralarında bölərək qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb.

İstintaq zamanı Rəşad İsgəndərovun ofis kimi istifadə etdiyi Bakı şəhəri, Binəqədi rayonu, Z.Bünyadov prospektində yerləşən 7 saylı evin 17 nömrəli mənzilinə baxış zamanı oradan sonuncuya məxsus olan 4 ədəd noutbuk, 1 ədəd stolüstü kompyuter, 118 min ABŞ dolları, 61 min manat, 1.125 AVRO pul vəsaiti, 2 ədəd mobil telefon aşkar edilərək götürülüb.

İş üzrə Rəşad İsgəndərov təqsirləndirilən şəxs qismində cəlb edilərək, ona Cinayət Məcəlləsinin 192.3.2-ci (xüsusilə külli miqdarda gəlir əldə etməklə qanunsuz sahibkarlıq) maddəsi ilə ittiham elan edilib, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə təqsirli şəxslərin dairəsinin tam müəyyən edilərək məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən olan qanunazidd hallarla üzləşən ölkə vətəndaşları və sahibkarlara müraciət edərək, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə məlumat verməlirini xahiş edir.

Qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqla ölkə iqtisadiyyatının inkişafına əngəl törədilməsinə yönəlmiş bu növ pozuntuların qarşısının alınması istiqamətində bundan sonra da ən ciddi tədbirlərin görülməsi davam etdiriləcək.

***Baki-xeber.com***

# Eldar Əzizovdan icra başçılarına tələb - "Hər bir sakinin problemlərini öz probleminiz kimi qəbul etməlisiniz"

**Bakı Şəhər İcra Hakimiyyətində (BŞİH) Prezident İlham Əliyevin Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovu qəbul etdiyi zaman verdiyi tapşırıqların icrası, Bakı şəhərində görülən abadlıq-quruculuq işlərinin vəziyyəti və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib.**



BŞİH-dən baki-xeber.com-a verilən məlumata görə, müşavirədə paytaxt rayonlarının icra hakimiyyətlərinin başçıları, şəhərin təsərrüfat xidmətlərinin rəhbərləri iştirak edib.

Toplantıda çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov ölkə başçısının qəbulunda olduğu zaman Prezident tərəfindən verilən tapşırıqlar, qeyd edilmiş nöqsanlar, görüləcək işlər və qarşıya qoyulan vəzifələr barədə məlumat verib.

Toplantıda bəzi icra hakimiyyəti başçıları ciddi tənqid edilib. Eldar Əzizov bildirib: "Şəhər və rayon icra hakimiyyəti başçıları cənab Prezidentin tutduğu iradlardan nəticə çıxarmalı, işimizi bu böyük insanın tələblərinə uyğun qurmalıyıq. Bu gün ölkədə sistemli dəyişikliklər, inqilabi islahatlar aparılır və buna uyğun olaraq iş, forma və metodlar dəyişməlidir. Tənqid və özünütənqid normaya çevrilməlidir".

E.Əzizov icra başçılarına müraciət edərək, hər bir sakinin problemini öz problemləri kimi qəbul edilməsinin vacibliyini vurğulayıb.

Müşavirədə qanunsuz tikintilərlə bağlı ölkə başçısının iradları çatdırılıb, yaradılmış park və məhəllələrin lazımi səviyyədə qorunması ilə bağlı tapşırıqlar verilib. Xüsusi olaraq vurğulanıb ki, daxil olan məlumatlara görə, RİH-də və digər qurumlarda vətəndaşların müraciətlərinə bəzi hallarda lazımi diqqət göstərilmir, süründürməçilik hallarına yol verilir.

Toplantıda rüşvətxorluq və digər neqativ halların aradan qaldırılması, yerlərdə vətəndaşlarla mütəmadi görüşlərin keçirilməsi və onların müraciətlərinə həssaslıqla yanaşılması ilə bağlı tapşırıqlar verilib və qaldırılan məsələlərlə bağlı tədbirlər planının hazırlanması qərara alınıb.

Tədbirdə bir neçə rayon icra hakimiyyətinin başçısı çıxış edərək, ölkə başçısının haqlı iradlarından nəticə çıxaracaqlarını və qısa müddətdə lazımi tədbirlərin görəcəklərini bildirib.

**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə elan etdiyi "Əhalinin siyahıyaalınması: dayanıqlı inkişaf üçün mühüm informasiya mənbəyi" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin noyabrın 6-da nəticələri açıqlanıb, qaliblər mükafatlandırılıblar.**

# Tahir Budaqovla Vüqar Səfərli 16 nəfər müsabiqə qalibi jurnalisti müxtəlif məbləğlərdə pulla mükafatlandırdı

## *Siyahıyaalmanın yekunları barədə bəzi məsələlər müzakirə edildi*








Beynəlxalq Mətbuat Mərkəzində keçirilən tədbirdə Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, komitənin məsul əməkdaşları, Fondun icraçı direktoru Vüqar Səfərli, eləcə də ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Vüqar Səfərli qonaqları salamlayaraq 2019-cu il oktyabrın 1-dən 10-dək keçirilmiş əhalinin siyahıyaalınması prosesinin ölkəmiz üçün müstəsna əhəmiyyətli ictimai-siyasi və sosial-iqtisadi hadisə kimi dəyərləndirib. İcraçı direktor bildirib ki, prosesin yekunu olaraq ölkə əhalisinin sayı və digər zəruri məlumatların əldə olunması ümumən ölkəmizin sosial-iqtisadi inkişafına xidmət edən islahatlar prosesinin səmərəliliyinin təmin olunmasına təkan verəcək. Vüqar Səfərli siyahıyaalma prosesinin mütəşəkkil və sistemli şəkildə keçirildiyini bildirərək bu munasibətlə Dövlət Statistika Komitəsinin rəhbərliyini təbrik edib.

Fondun icraçı direktoru xatırladıb ki, medianın və ictimaiyyətin siyahıyaalma prosesi barədə dolğun şəkildə məlumatlandırılması məqsədilə hələ 2019-cu ilin iyul ayında aparıcı KİV rəhbərlərinin Komitə rəhbərliyi ilə səmərəli görüşü təşkil edilib. Həmin tədbirin yekunu olaraq jurnalistlər üçün elan edilmiş "Əhalinin siyahıyaalınması: dayanıqlı inkişaf üçün mühüm informasiya mənbəyi" mövzusunda müsabiqə əhalinin siyahıyaalınması ilə bağlı maarifləndirmə tədbirlərinə töhfə vermək, bu prosesin əhəmiyyəti haqqında ictimaiyyəti geniş məlumatlandırmaq və əhali arasında təşviqat işlərini stimullaşdırmaq məqsədi daşıyıb.

Vüqar Səfərli bildirib ki, iyulun 22-dən oktyabrın 22-dək davam edən fərdi jurnalist yazıları müsabiqəsinə 18 KİV-dən 28 yazı daxil olub. Yazılar 3 nəfər ekspert tərəfindən qiymətləndirilib, 6 nəfər əsas, 10 nəfər həvəsləndirici mükafata layiq görülüb: "I yer üçün 1 nəfər olmaqla 1000, II yer üçün 2 nəfər olmaqla 700 manat, III yer üçün 3 nəfər olmaqla 500 manat mükafat nəzərdə tutulub. 10 nəfər jurnalistin hər biri 200 manat məbləğində həvəsləndirici mükafatlara layiq görülüb".

Daha sonra siyahıyaalma prosesi barədə danışmaq üçün söz Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqova verilib.

Komitə sədri Tahir Budaqov media nümayəndələrini salamlayaraq əhalinin siyahıyaalınması prosesinin hər bir ölkənin gələcək sosial-iqtisadi və demoqrafik inkişaf prioritetlərinin düzgün müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edən mürəkkəb proses olduğunu vurğulayıb. Komitə sədri əlavə edib ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 sentyabr tarixli Fərmanına uyğun olaraq 2019-cu ilin 1-10 oktyabr tarixlərində Azərbaycan Respublikasında əhalinin növbəti siyahıyaalınması əsasən başa çatdırılıb.

Tahir Budaqov bildirib ki, siyahıyaalma zamanı əhalinin tam əhatə olunması üçün dolğun uçotun təşkili, siyahıyaalmanın rayonlaşdırılması, şəhər, qəsəbə və kənd ərazilərinin siyahıyaalma, təlimatçı və sayıcı məntəqələrinə düzgün bölüşdürülməsinin təmini üçün 50-yə yaxın metodoloji və köməkçi sənədlər hazırlanıb. Siyahıyaalma və sorğu vərəqələri Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiyada təmsil olunan 19 dövlət qurumu, həmçinin Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə razılaşdırılaraq təsdiq edilib.

Tahir Budaqov, həmçinin bildirib ki, siyahıyaalınma ilə bağlı əhalinin məlumatlandırılması məqsədilə hazırlanmış təşviqat materiallarından plakat və banerlər yerli icra hakimiyyətləri tərəfindən müəyyən edilmiş dislokasiya üzrə yerləşdirilib. Video çarxlar isə aprel ayından başlayaraq televiziya kanalları və aparıcı elektron media vasitələrində, Bakı Metropolitenində, Dənizkənarı Milli Parkda və Dövlət Reklam Agentliyinin paytaxtın mərkəzi küçə və prospektlərində quraşdırılmış elektron lövhələrində yayımlanıb. Müxtəlif KİV-lərdə siyahıyaalmaya dair çoxsaylı məqalələr müntəzəm olaraq dərc edilib. Bu istiqamətdə mühüm addımlardan biri də fərdi jurnalist yazılarının stimullaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu ilə birgə müsabiqənin elan edilməsi olub.

Çıxışını davam etdirən Komitə sədri bildirib ki, siyahıyaalma başa çatdıqdan sonra siyahıyaalma materialları ilin sonunadək Siyahıyaalma qrupuna təhvil veriləcək: "2020-ci il ərzində işə qəbul ediləcək operatorlar vasitəsilə onların elektron məlumat sisteminə daxil edilməsi, proqram təminatı vasitəsi ilə məntiqi yoxlanılması prosesi həyata keçiriləcək. Sonrakı ilyarım ərzində siyahıyaalma məlumatları emal ediləcək, əldə ediləcək çıxış cədvəlləri əsasında siyahıyaalmanın yekunlarına dair məcmuələr nəşr olunaraq istifadəçilərə çatdırılacaq".

Bəzi vətəndaşların bu prosesdən kənarda qalması ilə bağlı iddialara aydınlıq gətirən Komitə sədri vurğulayıb ki, siyahıyaalmanın keyfiyyətinin yoxlanılması zamanı aşkar olunmuş nöqsanların aradan qaldırılması, eyni zamanda siyahıyaalma dövründə müxtəlif səbəblərdənsiyahıyaalmadan kənarda qalmış şəxslərin də siyahıyaalmaya cəlb edilməsi məqsədilə bütün yerli statistika orqanlarında operativ qruplar yaradılıb. Həmin qruplar tərəfindən ilin sonunadək hər bir müraciət üzrə müvafiq tədbirlərin görülməsi təmin ediləcək: "Cari ilin sonunadək ölkənin bütün rayon və şəhərlərində siyahıyaalmanın keyfiyyətinin yoxlanılması məqsədilə müvafiq tədbirlər görüləcək, o cümlədən təlimatçı-nəzarətçilər tərəfindən sayıcılardan siyahıyaalma sənədlərinin qəbul edilməsi, onların yoxlanılması, siyahıyaalma məntəqələrinin müdirlərinə təhvil verilməsi, daha sonra isə həmin materialların Dövlət Statistika Komitəsinin Siyahıyaalma qrupuna təqdim edilməsi prosesi həyata keçiriləcək. Yuxarıda qeyd olunan proseslərtam başa çatdıqdan sonra, 2020-ci ilin yanvar ayından etibarən həmin məlumatların Dövlət Statistika Komitəsində xüsusi yaradılmış elektron informasiya sisteminə daxil edilməsinə başlanılacaq".

Tədbirdə çıxış edən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev əhalinin siyahıyaalınması prosesinin ölkəmizin gələcək sosial-iqtisadi tərəqqisi baxımından əhəmiyyətini vurğulayıb və prosesin uğurla yekunlaşdığını bildiriblər. Natiqlər, həmçinin birgə müsabiqənin keçirilməsinini əhalinin bu sahədə maarifləndiriilməsi baxımından əhəmiyyətini xüsusu vurğulayıblar.

Sonra müsabiqə qaliblərinə diplom və mükafatlar təqdim edilib.

Fondun icraçı direktoru Vüqar Səfərli qalibləri təbrik edərək media ilə səmərəli və fəal əməkdaşlığa görə Dövlət Statistika Komitəsinin rəhbərliyinə təşəkkürünü bildirib.

**Tədbiri yekunlaşdıran Tahir Budaqov media ilə əlaqələrin inkişafına verdiyi töhfəyə görə Fondun rəhbərliyinə, eləcə də müsabiqədə iştirak edən jurnalistlərə təşəkkürünü bildirərək belə müştərək layihələrin gələcəkdə də davam etdiriləcəyini vurğulayıb.**

# Eldar Əzizov Bakının icra başçıları ilə yeni formatda işə başladı - Prezident tapşırıqlarından biri dərhal icra edildi...

## **Şakir Ağayev:** *"Bütün görülən işlər insanların sosial rifahı üçündür"*

**Məlum olduğu kimi, bir neçə gün əvvəl Prezident İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovu qəbul edərək onunla bir sıra istiqamətlərdə söhbət aparıb və rayon icra hakimiyyəti başçılarının fəaliyyəti ilə bağlı narazılıqları nəzərə çatdırıb. Dövlət başçısı E.Əzizova tövsiyə edib ki, o, rayon icra hakimiyyətləri başçılarını toplayıb müşavirə keçirsin.**



*"İcra hakimiyyəti başçıları Prezidentin verdiyi tapşırıqların icrası ilə operativ şəkildə məşğul olmalıdırlar"*

"...Ona görə siz rayon icra hakimiyyətlərinin başçılarını yığın və həm abadlıqla, həm də təsərrüfat işləri ilə bağlı müşavirə keçirin. İlk növbədə, xoşagəlməz hallara son qoyulmalıdır. Süründürməçilik, rüşvətxorluq, vətəndaşlara biganə münasibət - bunlara son qoyulmalıdır. Əgər kim bu sahədə öz işinə düzəliş etməsə, biz o adamlarla vidalaşacağıq və bu, onlar üçün hələ ən yüngül cəza olacaqdır. Biz şəhərimizi inkişaf etdirməliyik. Bir daha demək istəyirəm ki, Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən biridir və gələcəkdə də şəhərin inkişafı ilə bağlı əlavə addımlar atılacaqdır...".

Bakı Şəhər İcra Hakimiyyətində (BŞİH) Prezident İlham Əliyevin Eldar Əzizovu qəbul etdiyi zaman verdiyi tapşırıqların icrası, Bakı şəhərində görülən abadlıq-quruculuq işlərinin vəziyyəti və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib. BŞİH-dən verilən məlumata görə, müşavirədə paytaxt rayonlarının icra hakimiyyətlərinin başçıları, şəhərin təsərrüfat xidmətlərinin rəhbərləri iştirak ediblər.

Toplantıda çıxış edən BŞİH-nin başçısı E.Əzizov ölkə başçısının qəbulunda olduğu zaman Prezident tərəfindən verilən tapşırıqlar, qeyd edilmiş nöqsanlar, görüləcək işlər və qarşıya qoyulan vəzifələr barədə məlumat verib.

Toplantıda bəzi icra hakimiyyəti başçıları ciddi tənqid edilib. E.Əzizov bildirib: "Şəhər və rayon icra hakimiyyəti başçıları cənab Prezidentin tutduğu iradlardan nəticə çıxarmalı, işimizi bu böyük insanın tələblərinə uyğun qurmalıyıq. Bu gün ölkədə sistemli dəyişikliklər, inqilabi islahatlar aparılır və buna uyğun olaraq iş, forma və metodlar dəyişməlidir. Tənqid və özünütənqid normaya çevrilməlidir".

E.Əzizov icra başçılarına müraciət edərək, hər bir sakinin problemini öz problemi kimi qəbul edilməsinin vacibliyini vurğulayıb.

Müşavirədə qanunsuz tikintilərlə bağlı ölkə başçısının iradları çatdırılıb, yaradılmış park və məhəllələrin lazımi səviyyədə qorunması ilə bağlı tapşırıqlar verilib. Xüsusi olaraq vurğulanıb ki, daxil olan məlumatlara görə, RİH-də və digər qurumlarda vətəndaşların müraciətlərinə bəzi hallarda lazımi diqqət göstərilmir, süründürməçilik hallarına yol verilir. Toplantıda rüşvətxorluq və digər neqativ halların aradan qaldırılması, yerlərdə vətəndaşlarla mütəmadi görüşlərin keçirilməsi və onların müraciətlərinə həssaslıqla yanaşılması ilə bağlı tapşırıqlar verilib və qaldırılan məsələlərlə bağlı tədbirlər planının hazırlanması qərara alınıb.

Tədbirdə bir neçə rayon icra hakimiyyətinin başçısı çıxış edərək ölkə başçısının haqlı iradlarından nəticə çıxaracaqlarını və qısa müddətdə lazımi tədbirlər görəcəklərini bildiriblər.

"Novoe vremya" qəzetinin baş readktoru Şakir Ağayev bizimlə söhbətində bildirdi ki, Prezidentin tapşırığından sonra dərhal operativ müşavirənin keçirilməsi müsbət haldır. O hesab edir ki, bu müşavirədən sonra Prezidentin tapşırıqlarınını icrasında hər hansı səhvə yol verən icra başçıları öz postlarını itirmiş olacaqlar. Onun sözlərinə görə, bu müşavirənin keçirilməsi Prezidentin tapşırıqlarının icra edilməsi baxımından icra başçılarının qarşısına yeni tələblər qoyur: "Təbii ki, Prezident tərəfindən verilən göstərişlərə onun özünün nəzarət etməsi, bütün prosesləri yaxından izləməsi, diqqətdə saxlaması çox müsbət haldır. Amma, əslində, bu işlərə Prezident nəzarət etməli deyil, etimad göstərib icra başçısı təyin etdiyi insanlar həm verilən tapşırıqları icra etməli, həm də prosesi nəzarətdə saxlamalıdırlar. İcra hakimiyyəti başçıları Prezidentin etimadını doğrultmalıdırlar. Çox təəssüf ki, Azərbaycanın icra başçılarının çoxu vəzifəyə təyin edildikdən sonra Prezidentin tapşırıqlarını icra etmək əvəzinə, tamamilə başqa işlərlə məşğul olurlar. Onlar özlərini rayonun sahibi kimi aparır, istədiyini edir, vətəndaşları qəbul etmirlər, yaxud qəbul günlərini hədsiz dərəcədə məhdud edirlər, şikayətlərə əhəmiyyət vermirlər, süründürməçiliyə, rüşvətxorluğa yol verirlər. Sözsüz ki, cənab Prezident bütün bunlar barədə mətbuatdan və digər mənbələrdən onların əməlləri barədə məlumatlar alır. O görür ki, icra başçıları onun etimadını doğrultmur və bu işə özü nəzarət edir. Bildiyimiz kimi, cənab Prezident icra başçılarının fəaliyyətindəki nöqsanlar barədə bütün məlumatlara malikdir və bu haqda E.Əzizovla görüşdə geniş danışdı, eyni zamanda, icra başçılarına tapşırıqlarını, tələblərini çatdırdı. Hesab edirəm ki, Prezidentin göstəriş və tələblərinin icrası ilə bağlı E.Əzizovun icra hakimiyyəti başçılarının iştirakı ilə keçirdiyi operativ müşavirənin müsbət nəticələri olacaq. E.Əzizov özü də icra başçılarının yol verdiyi nöqsanlardan xəbərdardır. Bu operativ müşavirədən sonra kim ki, Prezidentin ona göstərdiyi etimadın məsuliyyətini dərk edib yol verdiyi nöqsanları aradan qaldıracaq, verilən tapşırıqları, göstərişləri lazımi səviyyədə icra edəcək, o, vəzifəsində qalacaq, etimadı doğrultmayanlar isə öz vəzifələri ilə vidalaşmalı olacaqlar. Təbii ki, belə cəzalar daha effektiv olar. Yəni kim ki, öz vəzifəsini yerinə yetirmək, Prezidentin göstərişlərini icra etmək iqtidarında deyil, o, vəzifəsindən kənarlaşdırılmalıdır".

Prezidentin tapşırığının operativ icra edildiyini deyən Ş.Ağayev hesab edir ki, dövlət başçısının həyata keçirdiyi siyasətin əsasında Azərbaycan xalqı və onun sosial rifahı, firavanlığı dayanır. "Bütün görülən işlər insanların sosial rifahı üçündür. Çox təəssüf ki, Bakının və rayonların bir çox icra hakimiyyəti başçısı kabinetə girir və özlərinə lazım olan işləri görür, vətəndaşların qayğısına qalmaq isə heç yadlarına belə düşmür. Bu da onların fəaliyyətindən narazılıqların artmasına səbəb olur. Bu narazılıqlar da, bildiyimiz kimi, Prezidentə çatır. Odur ki, icra hakimiyyəti başçıları Prezidentin verdiyi tapşırıqların icrası ilə operativ şəkildə məşğul olmalıdırlar. Çünki onların fəaliyyəti Prezident tərəfindən ciddi şəkildə izlənir" - deyə Ş.Ağayev vurğuladı.

***İradə SARIYEVA***

# Radikal müxalif liderlərin son toplantısına xaricdən sifariş...

**Xalqın etimadını itirmiş radikal müxalifətin bütün fəaliyyəti Azərbaycanda ictimai-siyasi sabitliyi pozmağa, vətəndaş qarşıdurması yaratmağa, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatları gözdən salmağa yönəlib. Onlar hələ də hesab edirlər ki, 90-cı illərin əvvəlində olduğu kimi, indi də bu yolla siyasi hakimiyyəti ələ keçirəcək, ölkəni istədikləri kimi idarə edə biləcəklər.**

*"Digər tərəfdən, onlar bununla görüntü yaradıb ictimai rəyi çaşdırmaq istəyirlər"*

***Vüqar Rəhimzadə:** "Radikalların məhz xarici dairələrin sifarişi əsasında bir araya gəlmələri ehtimalı böyükdür"*



Lakin Azərbaycan ictimaiyyəti radikalların bu qeyri-ciddi istəklərinin reallaşmasına imkan vermir, onların antimilli çağırışlarını sərt şəkildə qınayır.

O da məlumdur ki, Azərbaycan inkişaf etdikcə, ölkəmizin tərəqqisini gözü götürməyən qüvvələr, xaricdəki müəyyən dairələr bunun qarşısını müxtəlif yollarla almağa çalışıblar. Bu zaman Azərbaycanın daxilindəki öz maraqlarını hər şeydən üstün tutan, dövlətimizin inkişafını gözü götürməyib, xaosa sürükləyən, ümumiyyətlə, məhvini istəyən qüvvələrin xidmətindən istifadə edirlər. Radikal müxalifətin, xüsusən də AXCP və xarici qüvvələrin layihəsi olan Milli Şuranın son dövrdəki fəaliyyəti bunu bir daha sübut etdi. Bu düşərgəyə daxil olan dəstələrin məqsədi, hansı yolla olur-olsun, Azərbaycanı xaosa sürükləmək, dövlətçiliyə zərbə vurmaqdır.

Müsavat Partiyasının qərargahında İsa Qəmbər, Arif Hacılı, Əli Kərimli, Cəmil Həsənli, Əli İnsanov, Pənah Hüseynin bir araya gəlməsi deyilənlərin bariz nümunəsidir. Hansı ki, bu qüvvələr bir-birinə patoloji nifrət edirlər. Bunu cəmiyyət də bilir. Belə olan halda, adıçəkilən şəxslərin bir araya gələrək guya Azərbaycandakı mövcud ictimai-siyasi vəziyyət və yaranmış durumdan çıxış yolları ilə bağlı müzakirələr aparması gülünc təsir bağışlayır. Aydın məsələdir ki, onlar səmimi deyillər. Çox güman ki, xarici anti-Azərbaycan dairələrin sifarişinə uyğun olaraq, onlar bir araya gəliblər. O baxımdan maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər? Radikalların toplantısı xarici sifariş əsasında ola bilərmi?

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, radikalların məhz xarici dairələrin sifarişi əsasında bir araya gəlmələri ehtimalı böyükdür: "Çünki sözügedən şəxslər bir-birinə nifrət edirlər. Müxtəlif zamanlarda bir-birinin ünvanına olmazın təhqirlər səsləndiriblər, ən ağır formada ittihamlarla çıxış ediblər. Belə olan halda, necə olur ki, indiki vaxtda bir araya gəlirlər? Çox güman ki, onların xaricdəki ağaları belə istəyiblər. Çünki onların hər biri anti-Azərbaycan qüvvələrin əlində alətdir. Azərbaycana qarşı yönəlmiş çirkin kampaniyanın önündə gedirlər və xaricdən gələn sifarişə görə hərəkət edirlər. Bunu radikal müxalifət əməllərində də, fəaliyyətində də dəfələrlə təsdiq edib. Zaman-zaman biz bunun şahidi olmuşuq. Azərbaycanla bağlı uğurlar olan kimi, bəzi xarici dairələr radikallardan bir alət kimi istifadə edirlər. Digər tərəfdən, onlar bununla görüntü yaradıb ictimai rəyi çaşdırmaq istəyirlər.

**Necə deyərlər, özlərinin varlıqlarını təsdiq etmək, siyasi arenada mövcudluqlarını ortaya qoymaq üçün müəyyən mənada ictimai rəyi çaşdırmaq istəyirlər. Yoxsa, belədə heç cür mümkün deyil ki, bir-birinə patoloji nifrət edən bu şəxslər bir araya gəlsinlər. Bunların səmimiyyətindən söhbət belə gedə bilməz".**

***Vidadi ORDAHALLI***

# İlqar Məmmədovun da partiyası dağılmağa başladı - Aslan İsmayılov İlqar Məmmədovun özünü də istefaya çağırdı

*İlqar Məmmədov tək qaldı - Azər Qasımlı partiyadan istefa verdi*

**"Real" partiyası Məclisinin başqanı Azər Qasımlı partiyadan istefa verib. "Trend"in məlumatına görə, bu barədə A.Qasımlı noyabrın 6-da keçirdiyi mətbuat konfransında deyib. Bildirib ki, partiyanın sədri İlqar Məmmədovun etdiyi yeni təkliflərə görə istefa verib:**

"Belə bir vəziyyətdə mən bu partiyada qala bilmərəm. Mən özümü bu partiyada, strukturda görmürəm və getmək qərarına gəlmişəm. Siyasi mövqeyimi dəyişməmişəm və indiki mərhələdə partiya yaratmaq kimi bir fikrim yoxdur.

İlqar Məmmədovun təklif etdiyi layihə bizim qurduğumuz təşkilatı məhv edəcək, partiyanı Kommunist partiyasına çevirəcək. İdarə heyətini heç kim təftiş edə bilməyəcək. Məclisin olması isə o deməkdir ki, idarə heyətini məsuliyyətə cəlb edəcək, ondan hesabat tələb edəcək hansısa qurum olmayacaq. Siz təsəvvür edin ki, hazırda ölkəmizdə fəaliyyət göstərən, hətta 1990-cı illərdə yaradılan siyasi partiyaların strukturunda belə bu cür biabırçı vəziyyət yoxdur".

A.Qasımlı əlavə edib ki, nizamnamədə dəyişikliklər olacaqsa, bu, qurultayda olmalıdır: "İlqar Məmmədov öz yeni layihəsində bununla bağlı bir söz deməsə də, şəxsi fikrim belədir ki, belə bir əcaib və avtoritar layihə təklif edən şəxs irəlidə məhz nizamnamənin də dəyişə biləcəyini təklif edəcək".

"Real"a həmişə rəğbətlə yanaşmışam, orada xeyli dostlarım, şəxsi münasibətlərimin çox isti olduğu insanlar var. Amma təəssüf...

Bunu Müsavat Partiyası sədrliyinə keçmiş namizəd Yadigar Sadıqlı "Real" partiyası Məclisinin başqanı Azər Qasımlının partiyadan istefa verməsinə münasibət bildirərkən deyib.

Müsavat funksioneri bildirib: "Növbədənkənar qurultay və qurultaya qədər bütün səlahiyyətlərin sədrə verilməsi qərarları açıqlanandan Rusiyanın keçmiş baş naziri Çernomırdinin sözü beynimdə dolaşır: "Nə etsək də eyni şey alınır: ya Sov.İKP, ya da Kalaşnikov avtomatı".

Xatırladaq ki, "Real" partiyası Məclisinin başqanı Azər Qasımlı sədr İlqar Məmmədovun avtoritar qərarlarına görə noyabrın 6-da partiyadan istefa verib.

"Real" üzvləri öz potensiallarını reallaşdırmaq istəyirlərsə, İlqar Məmmədov partiya rəhbərliyindən istefa verməlidir. "Trend"in məlumatına görə, bunu Aslan İsmayılov deyib. Vaxtilə "Real" partiyasına böyük ümid bəslədiyini bildirən A.İsmayılov qeyd edib ki, İlqar Məmmədov sonra çıxışları onda məyusluq hissi yaradıb:

"Bu barədə fikirlərimi açıq şəkildə bölüşdüm. Bu gün hay-küylə istefa verən Azər Qasımlı adımı çəkməsə də, tənqidimə cavab olaraq məni ən ağır formada təhqir edib İ.Məmmədovu müdafiə etmişdi. Əminəm ki, A.Qasımlının istefası "Real"ın xeyrinədir. Ancaq yenə əvvəllər dediyim fikrimi bir daha təkrarlayıram. İ.Məmmədov partiya rəhbərliyindən istefa verməli, rəhbərliyə partiyadakı gənclərdən biri gətirilməli və kollektiv idarəetmə davam etməlidir. Əks halda, "Real"ı AMİP-in aqibəti gözləyir".

**Xatırladaq ki, "Real" partiyası Məclisinin başqanı Azər Qasımlı sədr İlqar Məmmədovun avtoritar qərarlarına görə partiyadan istefa verib.**

# "Qarabağ klanı" ayrıca Qələbə partiyası yaradaraq Paşinyanı devirmək üçün hərəkatə keçdi...

**Son dövrlərdə mövqeyi kifayət qədər sıxışdırılan "Qarabağ klanı" yenidən siyasi aktivliyini bərpa edərək Nikol Paşinyana qarşı sərt mövqe nümayiş etdirmək qərarına gəlib. Ermənistan mətbuatı yazır ki, klanın aktivləşməsi göstərişi Rusiyadan gəlib.**



Məsələ burasındadır ki, Moskva Paşinyanın artıq mümkün qədər tez devrilməsində indi xüsusi maraqlı tərəf qismində çıxış edərək, bu məqsədlə "Qarabağ klanı"ndan istifadə etməyi düşünür.

Qeyd edilənlər fonunda Ermənistanın keçmiş prezidenti, Nikol Paşinyanın başçılıq etdiyi "məxməri inqilab"la devrilən Serj Sarkisyanın yenidən siyasi səhnəyə qayıtması təsadüfi sayılmır. Ölkəsində Rusiya rəsmiləri ilə görüşdən sonra Sarkisyan ABŞ-ın İrəvandakı səfiri Linn Treysi ilə də görüşüb. Burada Sarkisyan Ermənistandakı daxili siyasi vəziyyət, Qarabağ danışıqlarına dair bir sıra məsələlər, iqtisadiyyat və Ermənistan-Amerika münasibətlərinin perspektivləri barədə mövqeyini çatdırıb. Səfirliyin bəyanatında deyilir ki, ABŞ Ermənistanda sosial, iqtisadi və demokratik idarəçiliyin dəstəklənməsi vəzifəsinə sadiq qalır və Respublika Partiyası ilə görüşlər müntəzəm xarakter daşıyacaq. Erməni mediası yazır ki, "Qarabağ klanı" bu fonda, Rusiyadan əlavə, ABŞ-dan da dəstək almağa çalışır. Belə bir vaxtda diqqət çəkən daha bir hadisə digər sabiq prezident Robert Köçəryanla bağlıdır. Ermənistanın "1in.am" portalı yazır ki, Köçəryanın tərəfdarları yeni hərəkat yaradaraq aktiv siyasətə start veriblər: "Robert Köçəryanın tərəfdarlarının yaratdığı "Qələbə" hərəkatının nümayəndələri Qeqarkunik vilayətinin Qavar şəhərində ikinci prezidentə dəstək üçün imza toplayıblar. Hərəkatın nümayəndələrindən biri öz çıxışında qeyd edib: "Biz Ermənistanın qarşısında duran problemlərlə bağlı fikirlərimizi sizinlə bölüşmək istəyirik. Sizlərin çoxu, bu və ya başqa səbəbdən, İrəvanda nə baş verdiyini bilmir. Bu gün Ermənistan çox ciddi çağırışlarla qarşı-qarşıya qalıb. Ona görə də biz ölkəmizin arzularımızın vətəni olması üçün sizinlə söhbət etməyə, birgə düşünməyə və fikirlərimizi bölüşməyə, nə edəcəyimizə qərar verməyə gəlmişik. Bizim hərəkatımızın şüarı "Birləşmə"dir, sizi bizə qatılmağa çağırırıq".

Hərəkat imza toplamağa 26 oktyabrda "Qələbə" parkında başlayıb. Təşəbbüsün üzvləri artıq Çarentsavan və Abovyan şəhərlərində olublar. Biz "Qələbə"nin Köçəryan trayektoriyasını çoxdan, hələ bu təşəbbüsün üzvləri vətənpərvər şüarların və haykülü bəyanatların kölgəsində gizlənərkən açmışdıq. Ən azı, bir həftədir ki, "Qələbə" hərəkatı "açılıb" və Köçəryan üçün imza toplayır. Əlbəttə, cəmiyyətə bu müddətdə Köçəryan üçün neçə imzanın toplanması, məsələn, ikinci prezidentin tərəfdarlarının tirajladığı tərifli çıxışlardan daha maraqlıdır. Köçəryanı dəstəkləyən bu növbəti təşəbbüs də, digərləri kimi, imitasiya xarakteri daşıyır, məqsəd - Ermənistanın ikinci prezidentinin tərəfdarlarının olduğunu göstərməkdir. Düzdür, Köçəryanın təsəvvür etdiyi "arzuların vətəni"ndə iki misilsiz cinayət baş verib, bir əyalət adamı ölkəni və cəmiyyəti talayaraq milyardlıq varidat sahibi olub, ölkə qanlı keyf məclisləri, korrupsiya tarixçələrilə zəngin əraziyə çevrilib.

Bu yalnız Robert Köçəryan və onun klanı üçün "arzuların vətəni" olub. Cəmiyyət öz vətəni haqqında xəyal qurmağa başlayanda isə inqilab baş verdi, Robert Köçəryan üçün həbsi qaçılmaz etdi. Belə alınıb ki, Ermənistanda "arzuların vətəni"nə ya cəmiyyət, ya da Robert Köçəryan sahib ola bilər və bu müstəvidə bu gün olan hər şey təbiidir. Yalnız aydın olmayan odur ki, Köçəryan cəmiyyətdə kimləri axtarır? Amma təhdid yaradan odur ki, Köçəryanın aktivləşməsi cəmiyyətdə yeni qarşıdurmaya rəvac verə bilər. Çünki ona Rusiyadan yüksək səviyyədə dəstək verilməsi sirr deyil. Bax, bu da Ermənistan üçün olduqca təhlükəli bir haldır. Köçəryan və Sarksiyan tərəfdarları xarici dəstəklə aktivləşsə, ciddi daxili qarşıdurma qaçılmazdır". Erməni mediasında bu qeyd edilənlərdən bəlli olur ki, düşmən ölkə yeni daxili təlatümlər astanasınadır. Özü də bu dəfə oyuna kənardan müdaxilə edənlər də var. Bu fonda yayılan digər məlumata əsasən, "Qarabağ klanı" mübarizə müddətində Köçəryanı həbsdən azad edə bilməsə, lider kimi Serj Sarkisyanın kürəkəni Mikael Minasyanı seçəcəklər. Prosesdə Sarksiyanın özü də maraqlı tərəf qismində çıxış edir. Artıq o, Nikol Paşinyan hökumətini inqilab yolu ilə devirməyi qarşısına məqsəd qoymuş "Adekvat" adlı yeni müxalifət partiyasının lideri də seçilib. Bu siyasi təşkilat Paşinyan hökumətini devirə biləcək lider kimi Serj Sarkisyanın kürəkənini gördüyünü bəyan edib. Partiyanın sədri Artur Danielyan bildirib ki, müxalifətin yeganə lideri və gələcəkdə Paşinyanı inqilab yolu ilə devirə biləcək siyasətçi kimi Mikael Minasyanı görür. Bu, Paşinyanın hakimiyyətə gəlişindən sonra onun tənqidçilərinin təşkilatlanmış daha bir ciddi addımı hesab olunur.

Qeyd edək ki, Mikael Minasyan Serj Sarkisyanın prezidentliyi dövründə Ermənistanın Vatikan Krallığındakı səfiri olub. O, həm də Ermənistanda mediamaqnat kimi tanınır. Mikael Minasyan özü də son vaxtlar ölkənin ictimai-siyasi həyatında nəzərəçarpacaq dərəcədə fəal görünür. O, hakimiyyətin ünvanına tənqidi çıxışlar edir, özünün media resurslarında məqalələr dərc etdirir, müsahibələr verir. Ermənistan mətbuatı bu fonda hazırda Nikol Paşinyana qarşı vahid siyasi cəbhənin formalaşdırılması istiqamətində məsləhətləşmələr aparıldığını yazır.

Yeni siyasi qüvvənin tərkibinə həm köhnə, həm də yeni müxalifətçilər daxil ola bilər. İlkin mərhələdə bu sıraya Serj Sarkisyanın rəhbərlik etdiyi Respublika Partiyası, Köçəryanın tərəfdarları, "Daşnakstyun" Erməni İnqilabı Federasiyasi və "Çiçəklənən Ermənistan" Partiyasının qoşulacağı da yayılan məlumatlar sırasındadır. Onların əsas hədəfi "Qarabağ klanı"nın yenidən hakimiyyəti ələ keçirməsidir.

***Nahid SALAYEV***

# Rusiya səfiri rəsmi İrəvanın KTMT-də Azərbaycanla bağlı narahatlıqlarını rədd etdi...

**Ermənistan KİV-i noyabrın 4-də İrəvanda keçirilən "KTMT-nin regional təhlükəsizliyin təmin edilməsində rolu" mövzusunda "dəyirmi masa" zamanı Rusiyanın həmin ölkədəki səfiri Sergey Kopırkinin bəyanatını narahatlıqla qarşılayıblar. O deyib ki, KTMT-nin rolu və səmərəliliyi hər zaman həm KİV, həm də ekspertlərin diqqət mərkəzində olub və misal üçün, baş katibin seçilməsi kimi aktual və s. məsələlər daim diqqət mərkəzində saxlanıb.**



***Yeganə Hacıyeva:** "Bizim cazibəmiz daim Ermənistanın gözünü qamaşdıracaq və o bunun qarşısını almaqla bağlı acizliyini hər zaman bu şəkildə büruzə verəcək"*

Səfir qeyd edib ki, "təşkilat daxilində əməkdaşlıqla bağlı, o cümlədən, ayrı-ayrı ölkələrin Azərbaycanla münasibətləri kontekstində suallar var".

Səfir sonra qeyd edib ki, Ermənistanın bu narazılığının KTMT-nin fəaliyyətinə heç bir aidiyyəti yoxdur. Söhbət ayrı-ayrı ölkələrin tərəflərlə qurduğu münasibətlərdən gedir. Erməni ictimai rəyi isə bunu səfirin mövzunu yayındırmaq cəhdi kimi dəyərləndirir, hətta belə rəylər yazırlar: "Azərbaycanla əməkdaşlıq etdiyinə görə hansı ölkələrin problemlə üzləşdiyini güman etmək olur? Bu, ilk növbədə, Azərbaycana müasir silah satan Rusiya və Belarusdur. Təbii ki, digər dövlətlə münaqişə vəziyyətində olduğuna görə Ermənistanda bununla bağlı suallar yarana bilər.

Digər tərəfdən, KTMT hərbi-siyasi ittifaq sayılır və üzvlərinin bir-biri qarşısında öhdəlikləri var. Yoxsa hansı blokdan söhbət gedə bilər? Ancaq reallıq fərqlidir və "müəyyən ölkələr" bu kimi məsələlər yarandığına görə Ermənistanla incikdirlər".

Faktiki olaraq məlum olur ki, səfir Ermənistana günahı KTMT-də deyil, özlərində axtarmağı məsləhət bilir. Səfirin bu mövqeyini necə xarakterizə etmək olar?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə bildirdi ki, KTMT-yə ilk böyük hörmətsizliyi Ermənistan etdi: "Paşinyan meydandan hakimiyyət başına gələn kimi atdığı ilk addımlardan biri rotasiya qaydasına görə quruma rəhbərlik edən erməni generalı həbs etmək oldu. Bunu böyük hörmətsizlik kimi qəbul edən KTMT ölkələri Paşinyana sərt təpki göstərdilər. Yadınızdadırsa, həmin vaxt Nazarbayev və Lukaşenko Paşinyanı açıq mətnlə siyasətdə naşı olmaqda günahlandırdılar. Ermənistan rəsmi dairələri KTMT ölkələrinin belə davranışlarını Azərbaycanla olan sıx münasibətləri ilə əlaqələndirdilər. Biz bunu inkar etmirik. Azərbaycanın KTMT-də təmsil olunan ölkələrlə çox yaxın münasibətləri var. Hətta onların hər biri ilə olan əlaqələrimiz Ermənistanla həmin ölkələr arasındakı əlaqələrdən daha sıxdır. Bunu Ermənistan hamıdan yaxşı dərk edir. Ermənistandakı səfir bir daha bunu anlatdı ki, Ermənistanın bu narahatlıqları əbəsdir. Onlar dərk etməlidirlər ki, blokda təmsilçilik münasibətləri ayrıdır, ikitərəfli münasibətlər ayrı. Ermənistan daim belə zənn edib ki, KTMT onların işğal amilini də dəstəkləyə bilər. Belə təbliğatı açıq aparıblar. Amma anlamırlar ki, Azərbaycan öz torpaqlarını tələb edir, Ermənistanın ərazisini yox. Hərbi əməliyyatlar da başlayacağı təqdirdə, biz antiterror əməliyyatını öz ərazimizdə aparacağıq. Bura KTMT-nin müdaxilə haqqı və hüququ yoxdur. Dəfələrlə bu mövqeni KTMT rəhbərləri də bəyan ediblər. Ermənistanın təsəvvürü isə tam başqadır. Onlar çalışırlar ki, KTMT-yə üzvlüklə bizi şantaj etsinlər. Reaksiyalarından belə görünür ki, oradakı üzv ölkələrin Azərbaycana düşmən münasibətini yaratmaq istəyirlər. Bu isə mümkün deyil. Çünki Azərbaycan həmin ölkələr üçün əlverişli, mühüm strateji tərəfdaş olan dövlətdir. Bizim cazibəmiz daim Ermənistanın gözünü qamaşdıracaq və o bunun qarşısını almaqla bağlı acizliyini hər zaman bu şəkildə büruzə verəcək".

***Məhəmmədəli QƏRİBLİ***

**Müsavat Partiyasının başqanı Arif Hacılının təşəbbüsü ilə radikal müxalifəti təmsil edən şəxslərdən ibarət "dəyirmi masa" keçirilib. Hələ bu təşəbbüs irəli sürüləndə birmənalı qarşılanmamışdı. Çünki A.Hacılının "dəyirmi masa"da görmək istədiyi şəxslərin sırasında Əli İnsanovun adını birinci yazması onu tənqid hədəfinə gətirmişdi.**

# "Siyasi meyitlər" bir-birinə can vermək üçün toplaşdı - Əli İnsanovda cəlbedici nə var...

### *Rəfail Becanov: "Birlik formatı eyni əqidədə olan adamlarla mümkündür"*



Nəhayət, oktyabrın 5-də belə bir görüş baş tutdu. AXCP sədri Əli Kərimli, Müsavat lideri İsa Qəmbər, keçmiş səhiyyə naziri Əli İnsanov, AXP sədri Pənah Hüseyn, Müsavat başqanı Arif Hacılı, politoloq Hikmət Hacızadə və "Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyevin qatıldığı tədbir Müsavat Partiyasının qərargahında keçirilib. Maraqlıdır ki, "dəyirmi masa"dan sonra sosial şəbəkələrdə tədbirlə bağlı olduqca mənfi rəylər yazılıb. Xüsusilə də müxalif mövqeli insanlar İsa Qəmbəri və Əli Kərimlini sərt tənqid atəşinə tutublar ki, vaxtilə onları təhqir edən Əli İnsanovla bir masa arxasında oturmağı necə öz mənəviyyatlarına sığışdırıblar? Sosial şəbəkələrdə Ə.İnsanovun vaxtilə İsa Qəmbər və digər müxalifət liderləri ilə bağlı səsləndirdiyi mənfi fikirləri sübut edən videokadrlar paylaşılıb. Bütün bunlar göstərir ki, məhz Ə.İnsanov faktoruna görə müxalifət kəskin tənqid edilir, amma bunlar da sabiq səhiyyə nazirindən əl çəkmək istəmirlər. Radikal müxalifətdə olan Ə.İnsanov sevgisi nə ilə izah oluna bilər? Və ya sualı başqa cür qoyaq: Ə.İnsanovun hansı göstəriciləri müxalifəti belə cəzb edir? Bununla bağlı müxtəlif versiyalar irəli sürülür. Məsələn, deyirlər ki, müxalifət Əli İnsanovun vaxtilə topladığı varidatından yararlanmaq, yəni onun pulundan istifadə etmək istəyir. Başqa bir versiyaya görə isə, Ə.İnsanovun ətrafında olan qərbi azərbaycanlıları prosesə cəlb etmək istəyirlər. Belə qənaətlər var ki, Ə.İnsanov böyük elektorata malikdir. Ə.İnsanovda bu keyfiyyətlər həqiqətən varmı və bundan radikallar nə dərəcədə yararlana bilər?

AXC adına iddialı olan qurumun funksioneri Rəfail Becanov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ə.İnsanovun həmin masada oturmasına edilən etirazlar təbiidir: "Çünki vaxtilə məhz Ə.İnsanov indi onunla yanaşı oturanların çoxunu ən sərt formada təhqir edib. Düzdür, sonradan məhkəməsində üzrxahlıq edib. Amma burada söhbət insan xislətindən gedir. Ə.İnsanov elə həmin vaxt siyasi mübarizəni hansı xislətlə apardığına dair mövqeyini ortaya qoymuşdu. Ə.İnsanovdan gözlədikləri vacib detal ətrafında olan elektoratla bağlı ola bilər. Bu elektorat əslində yoxdur, orada oturanlar bunun ola biləcəyini zənn edirlər. Bilirsiniz ki, Ə.İnsanovun hansısa təşkilatı və ya partiyası yoxdur. Bunlar hesab edirlər ki, Ə.Həsənovun ətrafında əslən Qərbi Azərbaycandan olan adamlar çox ola bilər. Bu yanaşmanın özü belə yanlışdır. Ölkəni regionlara bölmək zərərli tendensiyadır. Birinci səhv elə buradan başlayır. Ölkədə dəyişiklik etmək iddiasında olan müxalifət belə detaldan yapışırsa, deməli, onların yanaşmasında problem var. Bundan əlavə, məhz müxalif elektorat o masada oturanların birlikləri necə dağıtdıqlarının şahidi olub. Müxalifətin çox güclü zamanında Demokratik Konqresi dağıdıblar, 1998-ci ildə yaradılan və özündə 20-yə yaxın təşkilatı birləşdirən SİDSUH adlı təşkilatın da sonuna çıxdılar, ardınca 2010-cu ildə yaradılan İctimai Palatanın fəaliyyətini iflic etdilər, ən sonda isə bu gün Əli Kərimlinin adından istifadə etdiyi Milli Şura yoxa çıxdı. Bütün bunlar bizim gözümüzün önündə oldu. İndi Ə.İnsanovu ora cəlb edib, adına funksional əməkdaşlıq deməklə nə dəyişir ki? Təbii ki, heç nə. Birlik formatı eyni əqidədə olan adamlarla mümkündür. Orada oturan adamların əksəriyyətinin fərqli baxışları var. Hətta mən deyərdim ki, "mehriban düşmən"dirlər. İmkan düşən kimi bir-birini söyürlər. Ə.Kərimli müxalifətin pasport paylıyanı kimi özünü göstərirsə, hansı səmərəli əməkdaşlıqdan danışmaq olar? İş o yerə çatmışdı ki, Ə.Kərimli az qalırdı Müsavata öz adamını başqan seçdirə. Bəyəm bunu ordakılar bilmir? Ə.İnsanov olmur, kim olur-olsun, həmin adamlarla uzağa getmək mümkün deyil. Bu, cəmiyyəti aldatmaq, baş qatmaqdan başqa nəsə deyil".

***Məhəmmədəli QƏRİBLİ***

**"Freedom Haus" təşkilatı dünya ölkələrində internet azadlığı ilə bağlı növbəti illik reytinqi dərc edib. Təşkilat hesab edir ki, dünyada internet azadlığını ən çox pozan ölkə Çindir. "Freedom Haus" hesab edir ki, keçmiş SSRİ ölkələrindən Baltik ölkələrindən başqa, guya bu gün yalnız Ermənistan və Gürcüstanda internet azadlığı var.**

# "Freedom Haus" yenə Azərbaycana qarşı - Ermənistan 13, Azərbaycan 48-ci yerdə...

### *Azər Həsrət: "İnternetlə bağlı Azərbaycanın "qeyri-azad" ölkə hesab edilməsi qərəzli münasibətin göstəricisidir"*




Digər ölkələr, o cümlədən, Azərbaycan qeyri-azad ölkələr siyahısına daxil edilib. Qırğızıstan və Ukraynada internet "qismən azad", Azərbaycan, Belarus, Qazaxıstan, Rusiya və Özbəkistanda "qeyri-azaddır".

Gürcüstan və Ermənistan hesabatda müvafiq olaraq 10 və 13-cü yerləri tutublar, Azərbaycan isə 48-ci yerdədir. Azərbaycan haqqında hissədə deyilir ki, ölkədə dəfələrlə internet rabitə kanalları kəsilib, onlarla yerli və beynəlxalq sayt bloklanıb, sosial şəbəkələrə çıxış məhdudlaşdırılıb. Guya bütün bunlar hakimiyyətdən narazı olan səsləri "susdurmaq" və fəalların sosial şəbəkələr vasitəsilə etirazlara səfərbər olmasına "mane olmaq" məqsədilə edilib.

Təşkilatın iddiasına görə, internetdən istifadə imkanları səviyyəsinə görə İslandiya, Estoniya, Kanada, Almaniya, Avstraliya, Böyük Britaniya, ABŞ daha öncül mövqedə qərarlaşıblar.

Azərbaycanın internet azadlığına görə "qeyri-azad" ölkələr sırasına aid edilməsi, açıq-aşkar, bu təşkilatın ölkəmizə qarşı olan qərəzli münasibətindən irəli gəlir. Çünki qanunla hansısa saytın bloklanması o demək deyil ki, insanların internetə çıxış imkanları məhdudlaşdırılır.

Maraqlıdır, bəs ekspertlər "Freedom Haus"un bu yanaşmasını necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən media eksperti Azər Həsrətin sözlərinə görə, internetlə bağlı Azərbaycanın "qeyri-azad" ölkə hesab edilməsi qərəzli münasibətin göstəricisidir: "Bu cür qərəzli münasibət də təsadüfi deyil. Məsələ ondadır ki, "Freedom Haus" təşkilatının Cənubi Qafqaz üzrə bir nümayəndəsi var. Həmin şəxs ermənipərəst bir gürcüdür. Düşünürəm ki, sözügedən qiymətləndirmədə onun rolu az deyil. Çünki həmin adam, faktiki olaraq, özü hər zaman anti-Azərbaycan mövqeyindədir. Yəni fürsət düşən kimi, mümkün qədər Azərbaycana pislik etməyə çalışır. Bu şəxsin Azərbaycana yönəlik nifrəti var. Bu baxımdan hesab edirəm ki, həmin şəxsin qərəzli rəyi burada öz rolunu oynayıb. Ancaq belədə "Freedom Haus" hər zaman Azərbaycana münasibətdə qərəzli mövqe sergiləyib. Son yanaşma da bunun tərkib hissəsidir. Bununla yanaşı, Ermənistan və Gürcüstanda internetin daha azad olması ilə bağlı deyilənlər nağıldır. Çünki Gürcüstan, Ermənistanda bu və ya digər şəkildə internetdə problemlərlə qarşılaşmaq mümkündür. Azərbaycanda da təbii ki, müəyyən məsələlər var, amma bunların heç biri internetin, ümumilikdə, əngəllənməsi demək deyil. Azərbaycan dövləti internetin inkişafı üçün mümkün olan hər şeyi edir ki, vətəndaşlar sərbəst şəkildə ondan istifadə etsinlər. Üstəlik, Prezident İlham Əliyev dəfələrlə müxtəlif səviyyələrdə bəyan edib ki, biz heç bir halda internetə bu və ya digər şəkildə məhdudiyyət tətbiq etmirik. Həqiqətən də bu belədir. İndi kimlərinsə saytları bloklanıb və onlar başlayıb hay-küy salmağa. Onların saytı ona görə bloklanıb ki, həmin şəxslər qanunu pozublar. Hansı hallarda saytların bloklanması qanunla tənzimlənir. ABŞ-da, Böyük Britaniyada və digər ölkələrdə internet üzərindən qanunsuz fəaliyyətlə məşğul olanlara qarşı bu cür məhdudiyyətlər tətbiq olunur. Bu o demək deyil ki, həmin ölkələrdə internet azad deyil. Ona görə də "Freedom Haus"un Azərbaycana yanaşması sadəcə qərəzlidir".

> *"Dövlət internetin inkişafı üçün mümkün olan hər şeyi edir ki, vətəndaşlar sərbəst şəkildə ondan istifadə etsinlər"*

***Vidadi ORDAHALLI***

**Hüquq müdafiəçisi Oqtay Gülalıyevin sağlıq vəziyyətindən istifadə edib özünə süni xal toplamaq istəyənlərin niyyətləri baş tutmadı. Baş verən qəza hadisəsinin ilk günündən O.Gülalıyevin sağlıq vəziyyəti dövlətin nəzarətində olsa da, bəzi işbazlar "onun müalicəsini öz üzərimə götürürəm" deməklə, bir çaşqınlıq yaratmaq, həm də özlərinə dividend toplamaq cəhdini etdilər.**

# Oqtay Gülalıyevin şəxsi faciəsini siyasiləşdirənlərə cavab - Mehriban Əliyeva gözlənilən addımı atdı...

Bununla sanki belə bir təsəvvür formalaşdırılmağa çalışıldı ki, guya O.Gülalıyevin siyasi mövqeyinə görə ona lazımi tibbi yardım göstərilmir.

Biz analoji halları teztez müşahidə edirik. Daha çox populyar adamların müalicəsi ilə bağlı bəzi iş adamları belə təşəbbüs göstərirlər. Halbuki, onlara müraciət edən çoxlu sayda sadə vətəndaşın müraciətinə heç cavab belə vermirlər. Bilirlər ki, sadə vətəndaşlara yardım etməklə lazımi piarı əldə edə bilməyəcəklər. Belə bir ucuz piar axtaranların növbəti niyyətləri də həyata keçmədi.

O.Gülalıyevin ailəsinin istəyi əsasında Heydər Əliyev Fondunun dəstəyilə onun müalicəsi İstanbulda davam etdiriləcək. Gülalıyev təcili tibbi yardım avtomobili ilə Neyrocərrahiyyə Xəstəxanasından çıxarılaraq Heydər Əliyev adına Beynəlxalq Hava Limanına çatdırılıb.

Həkimlər və tibb personalı da səfər boyunca onu müşayiət edib və vəziyyəti nəzarət altında saxlanıb. Həyat yoldaşı Firuzə Gülalıyeva da onunla birgə gedib. Həkimlər təyyarədə O.Gülalıyevin səhhətini müayinə etdikdən sonra uçuşun başlanmasına razılıq veriblər.

Hüquq müdafiəçisi O.Gülalıyevin müalicəsi üçün Türkiyədən dəvət olunan həkim onun vəziyyəti ilə bağlı açıqlama verib.

İstanbul Avrasiya Birləşmiş Xəstəxanalarının Reanimasiya şöbəsinin rəhbəri, anestezioloq və reanimatoloq Kadir Doğruer bildirib ki, Bakıya Oqtay bəyin ailəsinin istəyi əsasında Heydər Əliyev Fondunun dəvətilə gəlib: "Xəstəni müayinə etdim, əlimdən gələn köməyi etməyə hazıram. Oqtay bəyin ümumi vəziyyəti hazırda kritikdir. Beyində ciddi zədələnmə var, başqa bir problemi yoxdur. Burada zəruri olan bütün tədbirlər görülüb. Həyatı üçün təhlükə var. Beyni zədələndiyi üçün ciddi problemlər ortaya çıxa bilər. Hazırda bunu proqnozlaşdırmaq mümkün deyil.



Azərbaycanda edilən bütün tibbi müdaxilələr yerindədir. Vaxtında əməliyyat olunub və lazımi tibbi yardım göstərilib. Mənim bura gəlməyim tamamilə ailənin istəyi olub, əlimdən gələn dəstəyi verməyə çalışıram. Mən azərbaycanlı həkimlərin gördüyü işləri davam etdirəcəyəm, əlavə bir iş görməyəcəyəm.

Türkiyə ilə Azərbaycan arasında reanimasiya prosedurları baxımından fərq var. Bu prosedurların Oqtay bəyə faydası olacağını düşünürəm. Buna görə də Oqtay bəyi İstanbula aparırıq. Burada hər şey yolundadır, sadəcə, xəstə yaxınlarının tələbilə biz onu İstanbula aparırıq.

Mən burada Azərbaycan dövlətinin vəzifəli şəxsləri və Heydər Əliyev Fondunun rəhbərliyi ilə görüşdüm. Oqtay bəyə verilən dəstəkdən çox təsirləndim. Ümid edirəm ki, bu dəstəyin nəticəsi olacaq. Buna görə Heydər Əliyev Fonduna təşəkkür edirəm".

Hüquq müdafiəçisinin həyat yoldaşı Firuzə Gülalıyeva həyat yoldaşının müalicəsinin Türkiyədə davam etdirilməsinin təmin olunmasına görə Heydər Əliyev Fonduna təşəkkür edib.

Qeyd edək ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, Fondun əməkdaşları Respublika Neyrocərrahiyyə Xəstəxanasında müalicə olunan hüquq müdafiəçisi O.Gülalıyevin səhhəti ilə bağlı məsələləri nəzarətə götürüb və onun müalicəsi üçün lazımi dəstəyin göstəriləcəyi bildirilib. Bundan sonra Heydər Əliyev Fondundan verilən məlumata görə, O.Gülalıyevin Türkiyəyə aparılması üçün xüsusi ambulans təyyarə ayrılıb.

Bu hal O.Gülalıyevin faciəsini siyasiləşdirənlərə lazımi cavab sayıla bilərmi?

İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin rəhbəri (İSBAM) Samir Adıgözəlli "Bakı-Xəbər"ə bildirdi ki, bu hadisədən çoxları nəticə çıxarmalıdır: "Əvvəla onu qeyd edim ki, Oqtay bəyin düşdüyü vəziyyətə görə çox narahat oldum. Mən onu uzun illərdir tanıyıram. Siyasi baxışlarımızda fərqlər olsa da, onu çox tolerant və mədəni insan kimi xarakterizə edərdim. Qəzadan heç kim sığortalanmayıb. O.Gülalıyev də təsadüfi qəza nəticəsində belə vəziyyətə düşüb. Bu kadrlar yayılıb. Ancaq təəssüflə qeyd etməliyəm ki, elə həmin kadrlarla bağlı araşdırmanın nəticəsini gözləmədən, rəsmi mövqeni dinləmədən sosial şəbəkələrdə hüquq müdafiəçisinə guya sui-qəsd olub versiyasını qabartdılar. Ancaq məlum oldu ki, sükanın arxasında adi taksi sürücüsü olub və ehtiyatsızlıqdan belə bir qəza törədib. Sonra belə rəy formalaşdırmağa çalışdılar ki, guya Oqtay bəyə lazımi tibbi yardım göstərilməyib. Ancaq mən müxalif mövqeli insan kimi tanınan Adil Qeybullanın açıqlamasına baxdım. O bu versiyaları tamamilə alt-üst etdi. Hadisə baş verəndən sonra xəstəni "Semaşko" xəstəxanasına çatdırıblar. Orada ilkin yardım olunub, sonra doğmalarının istəyilə özəl xəstəxanaya köçürüblər. Səhiyyə Nazirliyinin nəzarəti altında təcrübəli həkimlər tərəfindən əməliyyat edilib. Vəziyyəti ağır olduğu üçün hələ də komadadır. Sonra isə məlum oldu ki, artıq Oqtay bəyin müalicəsini Mehriban xanım Əliyeva öz üzərinə götürüb. Mən kadrları izlədim. Oqtay bəyə çox böyük qayğı ilə yanaşılıb. Xüsusi təyyarə ilə onu Türkiyəyə yola salıblar. Türkiyədən gələn həkim də bildirib ki, burada nə lazımdırsa, o yardımı düzgün göstəriblər. Bu, ilk təcrübə deyil. Müxalif mövqeyi ilə tanınan bir neçə jurnalistin də ağır xəstəliyini məhz Azərbaycan dövləti öz üzərinə götürüb. Bu yaxınlarda Mehriban xanım eks-prezident Əbülfəz Elçibəyin evini əsaslı təmir etdirdi. Bütün bunlar sübut edir ki. Azərbaycan hakimiyyəti öz siyasi rəqiblərinə düşmən kimi yanaşmır. Bu səbəbdən də çox ağır məsələlərlə bağlı kənardan yardım gözləməkdənsə, elə öz dövlətimizə bu yöndə müraciət etmək lazımdır. Bəzi fürsətcillər də belə vəziyyətdən istifadə etməməlidirlər. Xeyriyyəçilik etmək istəyənlər üçün heç kim yolu bağlamır, buyursunlar etsinlər. Niyə reklam olunmaq üçün mövzu axtarıb, çaşqınlıq yaradırlar? Allahdan Oqtay bəyə şəfa diləyirəm. Mehriban xanıma da siyasi düşərgələr arasında körpülərin möhkəmlənməsi istiqamətində atdığı əhəmiyyətli addımlara görə təşəkkür edirəm".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycanın artan hərbi üstünlükləri ətrafında Ermənistanda müzakirələr genişlənir...

**Azərbaycanın hərb sənayesində əldə etdiyi uğurlar işğalçı Ermənistanda getdikcə daha böyük təşviş doğurur. Burada hesab edilir ki, belə vəziyyət Dağlıq Qarabağ münaqişəsi güc yolu ilə həll olunacağı təqdirdə Ermənistanın sərt hərbi zərbələrə məruz qalmasına gətirib çıxaracaq.**

Baş verənlərə münasibət bildirən Ermənistan parlamentinin müdafiə və təhlükəsizlik məsələləri üzrə daimi komissiyasının sədri Andranik Koçəryan qeyd edib ki, Bakının hərb sənayesi ilə yanaşı müdafiə xərclərini artırması da İrəvan üçün əlavə problemlər deməkdir:"Silah balansı problemi gündəmdədir, rəqib silah növü baxımından müəyyən üstünlüklərə malik olmamalıdır. Amma Azərbaycan artıq çox ciddi üstünlüklərə malikdir. İndi çox müzakirə olunur ki, onların büdcəsində daha çox ayırmalar var, bizimki daha azdır. Bəli, həqiqətən də belədir". O qeyd edib ki, Azərbaycanın büdcə ayırmaları Ermənistanınkından fərqlidir:"Siz istəyirsiniz ki, mən bunun pis şey olduğunu deyim. Mən bunu deyəcəm, bu pis şeydir. Azərbaycanın büdcə ayırmaları, onların silahlı qüvvələrinin quruluşu bir az fərqlidir. Amma hərbi sahədə üstünlüklərini artırması da danılmazdır". Erməni hərbi ekspert Qraç Petrosyan isə bildirir ki, Azərbaycanın daha bir üstünlüyü müdafiə sənayesi ilə bağlıdır: "Bu gün müdafiə sənayesi Ermənistanın ən zəif yeridir və bu sahədə ciddi boşluqlar mövcuddur". Onun sözlərinə görə, Ermənistanın müdafiə sənayesi yoxdur: "Lakin bu haqda danışmaq istəmirlər və daim hərbi sirr olduğunu vurğulamaqla ictimaiyyətdən gizlədirlər. Əgər hansısa Rusiya şirkəti gəlib Ermənistanda "Kalaşnikov" avtomatları istehsal edirsə, bu, bizim hərbi sənayemiz deyil. Bizdə zavodlar var, hansı ki, avadanlıqların təmirini həyata keçirir. Sovet vaxtlarında mövcud olan zavodlar da sıradan çıxıb. Ordu üçün heç bir ciddi istehsal yoxdur". Erməni hərbi ekspert Azərbaycanı nümunə göstərib: "Azərbaycanın müdafiə sənayesi güclənir, həmçinin, Türkiyə ilə birgə hərbi zavodları var. İsraildən, Rusiyadan və digər ölkələrdən müasir slahlar alırlar. Onlar beynəlxalq sərgilərdə öz istehsalları olan bir neçə yüz növ hərbi avadanlıqlarını sərgiləyirlər. O haqda düşünməliyik ki, Azərbaycanın müdafiə sənayesinin inkişafı fonunda biz nə edirik?!". Petrosyan qeyd edib ki, Azərbaycan mümkün qədər qısa müddətdə əraziləri qaytarmaq üçün çalışır və hərbi xərclərin artırılmasından tutmuş, müdafiə sənayesinin inkişafına qədər bir sıra istiqamətlərdə atılan addımlar buna hesablanıb.

Ekspertlər qeyd edir ki, Azərbaycan müdafiə sənayesinin uğurlarından Ermənistanın narahat olması, əslində təbii haldır. Çünki ötən dövr ərzində bu sahədə əldə edilən uğurlar Azərbaycanın Ermənistan üzərində hərbi üstünlüklərinin artmasına birbaşa təsir edib. Xatırladaq ki, ötən dövrdə nazirliyin müəssisələrində ən müasir texnologiya və avadanlıqla təchiz olunan 50-dən çox yeni istehsal sahəsi yaradılıb. Burada istehsal olunan məhsulun 80 faizdən çoxu müdafiə, xüsusi təyinatlı məmulatlardır. İstehsalı mənimsənilən müdafiə təyinatlı məmulatların çeşidlərinin sayı 1200-ü ötüb. Bu gün nazirliyin müəssisələrində yaradılan və istehsal olunan müxtəlif növ döyüş sursatlarının, müasir atıcı və artilleriya silahlarının, zirehli texnikaların, xüsusi təyinatlı patrul maşınının və digər məmulatların ixracı həyata keçirilir. Hazırda onlarla ölkəyə Azərbaycan istehsalı olan hərbi məhsullar ixrac edilir. Bu isə həmin məhsulların yüksək keyfiyyətinin göstiəricsi sayılır. Ən əsası, ordunun bir çox ehtiyacları birbaşa daxili istehsal hesabına ödənilir. Müxtəlif istiqamətlər üzrə müasir texnologiyalara əsaslanan yeni istehsal sahələrinin yaradılması, idxalı əvəz edəcək məhsulların yerli istehsalının təşkili üçün də yeni addımlar atılır. Elə bunun nəticəsidir ki, cari ildə qəlpəli fuqaslı yandırıcı gülləli mərmilər, qumbaraatanlar üçün 4 növ qumbaralı atəş yığımları, snayper tüfəngi, xüsusi təyinatlılar üçün patrul maşını, zirehdələn-yandırıcı-izburaxan gülləli mərmilər, müxtəlif növ döyüş sursatları, artilleriya və tank topları üçün mərmilərin gövdələri, gilizləri, avtomatik topun istehsalı mümkün olub.

Daha bir mühüm uğur isə müxtəlif ölkələr, o cümlədən Qərb dövlətləri ilə əməkdaşlıq sayəsində birgə istehsalın qurulmasıdır. Maraqlıdır ki, əvvəllər bu istiqamətdə Azərbaycanla əməkdaşlıqdan qaçan Qərb şirkətləri indi ölkəmizlə işbirliyinə xüsusi can atır. Özü də buna artıq erməni lobbisi mane ola bilmir. Məsələn, erməni lobbisinin güclü olduğu Fransa üçün indi Azərbaycanla hərbi əməkdaşlıq prioritetdir. Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lö Mer bu fonda bildirir ki, Fransa energetika, neft-qaz sektoru, bərpa olunan enerji, eləcə də müdafiə sənayesi sahələrində birgə əməkdaşlığın inkişafında maraqlıdır. Artıq Fransanın "Nexter", "Thales" kimi nəhəng hərbi şirkətləri Azərbaycanla sıx əməkdaşlıq edir.

Ermənistan bildirir ki, rəsmi İrəvan Fransa şirkətlərinin Bakı ilə əməkdaşlığının Qarabağda istifadə olunmayacağına ümid edir. Lakin erməni rəsmiləri sadə həqiqəti unudur ki, dünyada hərbi-texniki əməkdaşlıq sahəsində bağlanan müqavilələrdə bu cür şərtlər qoyulmur. İndilikdə isə Fransa-Azərbaycan əlaqələri, xüsusilə də hərbi-texniki sahədə əməkdaşlıq umumilikdə müsbət dinamikaya malikdir və artıq bir neçə ildir ki, yüksələn xətt üzrə inkişaf edir. Fransanın "Nexter Systems" şirkətinin Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Filip Devid Azərbaycanla hərbi-texniki əməkdaşlıqda maraqlı olduqlarını açıq bəyan edib.

Xatırladaq ki, "Nexter Systems" şirkəti dünya ordularının yüksək texnologiyalı müdafiə məhsullarının hazırlanması və istehsalı sahəsində yaranan tələbatını qarşılamaq üçün yaradılıb. "Nexter" bütün qoşun növləri üçün yüngül zirehli avtomobildən ağır tanka qədər istənilən sinifdən olan vasitələrin, artilleriya qurğularının, müxtəlif çaplı və təyinatlı topların, onların quraşdırıldığı turellərin, idarəetmə sistemlərinin, müxtəlif optik avadanlıqların, robotların, kimyəvi mühafizə vasitələrinin, orta və böyük çaplı sursatların istehsalı ilə məşğul olur. Şirkət həmin məhsulları Azərbaycana tədarük etməklə yanaşı, birgə istehsal müəssisələrinin yaradılması istiqamətində də iş aparır. Almaniya, Fransa, Çexiya, İtaliya şirkətləri tərəfindən də analoji addımlar atılır.

Son dövrlərdə Çin də müdafiə sənayesi sahəsində Azərbaycanla işbirliyinə xüsusi diqqət yetirir. Çinin "Aerospace Long-March International Trade" şirkətinin kommersiya direktoru Cui Shiqiang bu istiqamətdə müvafiq addımlar atmağa hazır olduqlarını bildirir: "Şirkət diqqətini əsasən "yer-yer", "yer-hava" və "hava-yer" raket sistemlərinin, dəqiq tuşlamalı PGB bombaları, PUA-lar, terrorizmlə mübarizə vasitələri, sərhəd və sahilyanı ərazilərin müşahidə və nəzarət sistemləri, aerokosmik avadanlıqlar ilə təchizatına, həmçinin Çinin aerokosmik sənayesinin sifarişlərinin böyük bir hissəsinin yerinə yetirilməsinə yönəldib.

Biz hazırda aerokosmik sahədə bir neçə layihənin müqaviləsini həyata keçirik, mobil və peyk rabitə avadanlıqları, elektron müşahidə və sərhəd nəzarəti vasitələri, şəhər qəza idarəetmə və dispetçer xidməti üçün müasir avadanlıqlar istehsal edirik. Azərbaycanla əməkdaşlıq şirkətin maraqlarına uyğundur. Hesab edirəm ki, bizim peyk və rabitə avadanlıqlarımız Azərbaycanı maraqlandıra bilər. Bura digər hərbi məhsullar da daxildir".

MDB ölkələrindən Rusiya, Ukranya, Belarus da Azərbaycanla hərbi əməkdaşlığı dinamik formada inkişaf etdirir. Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahının keçmiş əməkdaşı Oleq Jdanov bildirir ki, Ermənistanın narazılığına baxmayaraq, Ukrayna hərbi sənaye kompleksinin yeniliklərini Bakını təqdim etməyə hazırdır: "Bunlara bir neçə istiqamət daxildir. Məsələn, raketlər, xüsusilə "Smerç" YARS üçün yüksək dəqiqlikli "Olxa" raketləri, eləcə də "Qrad", "Uraqan" və "Smerç" yaylım atəşli reaktiv sistemlər üçün sadə raketlərin bütün növləri aiddir. "Zoopak" artilleriya kəşfiyyat kompleksi, "Polojenie" kontrbatareya mübarizə vasitəsinin son modifikasiyası, hava məkanını qorumaq üçün "Kolçuqa" RLS-i qeyd etmək olar. Hərbi nəqliyyat aviasiya sahəsində isə həm döyüş zonasındakı torpaq uçuş-enmə zolaqlarında vəzifələri yerinə yetirə bilən yaxın mənzilli AN-148, həm də orta mənzilli AN-124 "Ruslan" təyyarələrini göstərmək olar".

Bunlaral yanaşı o da məlumdur ki, Azərbaycan İsraillə etibarlı hərbi tərəfdaşlıq münasibətlərinə malikdir. Ölkəmizdə silah sənayesinin formalaşmasında və ordumuzun müasir silahlarla təchiz edilməsində İsrail əhəmiyyətli müttəfiq kimi mühüm rol oynayır. Hazırda Quru Qoşunlarımızda və Hərbi Hava Qüvvələrində İsrail istehsalı olan müxtəlif adda hərbi texnikalardan istifadə olunur.

2005-ci ildən başlayaraq ölkələrimiz arasında bu sahədə fəal əməkdaşlıq aparılır. Azərbaycan Hərbi Hava Qüvvələrinin inventarında İsrail istehsalı olan "Orbiter-2M" və "Aerostar" tipli pilotsuz uçuş aparatlarına rast gəlmək olar. 2011-ci ildə Müdafiə Sənayesi Nazirliyi ilə İsrail şirkətinin birgə qurduğu "AZAD sistemlər" müəssisəsi fəaliyyətə başlayıb. Bu müəssisədə "Orbiter-2" pilotsuz uçuş aparatlarının istehsalı həyata keçirilir. "Orbiter-2" aparatları həm ordumuzun istifadəsinə verilib, həm də bir sıra ölkələrə ixrac edilir. Türkiyə ilə də işbirliyi sayəsində yeni hərbi texnikaların alışı və istehsalı uğurla həyata keçirilir. Bütün bunlar nəticə etibarı ilə Azərbaycanın hərbi qüdrətini daha da artırır. Elə Ermənistanı da qorxudan əsas məqamlardan biri məhz budur.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Paşinyanın iki güclü düşməni - birinə Rusiyadan, digərinə ABŞ-dan açıq dəstək...

**Ermənistanın keçmiş prezidenti, Nikol Paşinyanın başçılıq etdiyi "məxməri inqilab"la devrilən Serj Sarkisyan yenidən siyasi səhnəyə qayıdıb. Erməni KİV-i yazir ki, Sarkisyan ABŞ-ın İrəvandakı səfiri Linn Treysi ilə görüşüb.**



***Nəzakət Məmmədova:** "ABŞ Putinin yaxın dostu Köçəryandansa Sarkisyanla işləməyi üstün tutacağını nümayiş etdirir"*

Görüş Amerika tərəfinin təşəbbüsü ilə baş tutub və orada Sarkisyanın başçılıq etdiyi Respublika Partiyasının nümayəndələri də iştirak ediblər. Səfir Linn Treysinin xahişilə Sarkisyan Ermənistandakı daxili siyasi vəziyyət, Qarabağ danışıqlarına dair bir sıra məsələlər, iqtisadiyyat və Ermənistan-Amerika münasibətlərinin perspektivləri barədə mövqeyini çatdırıb. Səfirliyin bəyanatında deyilir ki, ABŞ Ermənistanda sosial, iqtisadi və demokratik idarəçiliyin dəstəklənməsi vəzifəsinə sadiq qalır, Respublika Partiyası ilə görüşlər müntəzəm xarakter daşıyacaq.

Burada diqqətçəkən vacib məqam bundan ibarətdir ki, dünyanın hegemon ölkələri Paşinyanın rəqiblərinə açıq dəstək verirlər. Rusiya bu dəstəyi Köçəryana, ABŞ isə Sarkisyana ifadə edir. Bu amil hər iki süpergücün Paşinyanla vidalaşmaq istəyinə dəlalət edirmi?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə bildirdi ki, burada vacib olan məqamlar yetərincədir: "ABŞ Sarkisyanla görüşərək daha çox onun neytrallaşdırılması istiqamətində iş apara bilər. Eyni zamanda, Ermənistan daxilindəki bütün siyasi qüvvələrlə işləməsini göstərmək üçün belə bir addım atmış ola bilər. Bu, Rusiyanın Ermənistandakı müəyyən qüvvələri fəallaşdırmasına cavab olaraq, həm də Paşinyanı diskreditasiya etməsinə cavab olaraq, ABŞ-ın heç bir qüvvəni ayrıseçkiliyə məruz qoymaması görüntüsünə hesablanıb. Digər tərəfdən, ABŞ iki pisdən birini seçmək məcburiyyətində qalmış olduğundan, Putinin yaxın dostu Köçəryandansa, Sarkisyanla işləməyi üstün tutacağını nümayiş etdirir. Hər halda, Sarkisyan Köçəryan qədər Rusiyaya yaxın deyil, ən azından, onun dövründə Ermənistan AB ilə assosiativ saziş imzalayıb və s. ABŞ Sarkisyan vasitəsilə Rusiyaya müəyyən mesajlar göndərə, yaxud "Qarabağ klanı" daxilində dayaqlar tapmağa çalışmış ola bilər. Ola bilsin ki, ABŞ həm də bu vasitə ilə "Qarabağ klanı"nı Rusiyanın nəzarətindən çıxarmağa çalışır. İstənilən halda, bir fakt ortaya çıxır. Nə Rusiya, nə də ABŞ Paşinyanla işləməkdə maraqlı deyil. Bu fəallaşma yəqin ki, yaxın zamanlarda Ermənistanın daxili ictimai rəyində hiss edilməyə başlayacaq".

Politoloqun sözlərinə görə, bu amil "Qarabağ klanı"ndakı güc nisbətini də parçalaya bilər: "Dünyanın bir supergücü Köçəryanı, digəri isə Sarkisyanı dəstəkləyəcəksə, burada parçalanmanın olması labüddür. Hər iki şəxs kifayət qədər təcrübəyə malik, ölkəni idarə etmiş siyasətçilərdir. Onlarla işləmək həm ABŞ, həm də Rusiya üçün daha məqbuldur".

***Məhəmmədəli QƏRİBLİ***

# İsraildə saxta "erməni genosi"dinə dəstək başladı - yəhudilərin özlərinə qarşı erməni qətliamı, dost Azərbaycan unudulur?...

**Son günlər İsraildə qondarma "erməni soyqırımı"nın tanınması çağırışları artır. Müxtəlif formada bununla bağlı tələblər səslənir. Bu arada İsrailin sabiq iki naziri belə bir tələblə çıxış edib. Belə ki, İsrailin keçmiş maliyyə naziri Yair Lapid özünün "Twitter" səhifəsində yazıb ki, ölkəsi də analoji addım atmalıdır:**



***Məhəmməd Əsədullazadə:** "İsraildə müəyyən qüvvələr var ki, onlar erməni lobbisi ilə sıx təmasdadır"*

"ABŞ Nümayəndələr Palatasında "erməni soyqırımı"nı tanımaq üçün verilən səs tarixi həqiqətə və ədalətə verilən səs idi. Türkiyənin dünyanı qorxutmasına imkan verməməliyik. "Soyqırım"ı tanımaq üçün İsrailin "erməni soyqırımı"nı tanıması üçün mübarizəni davam etdirəcəyəm".

İsrailin keçmiş təhsil və ev işləri naziri Gideon Saar özünün "Twitter" səhifəsində oxşar qeyd yerləşdirib: "ABŞ Nümayəndələr Palatasının 100 il əvvəl ermənilərin kütləvi qətllərini "soyqırım" kimi təsnifləşdirmək barədə mənəvi və prinsipial addımını alqışlayıram. İsrail də bu vəhşiliyi etiraf etməlidir".

Bununla yanaşı, İsraildə bir neçə jurnalist Netanyahu hökumətini qondarma "erməni soyqırımı"nı tanımağa çağırıb. Söhbət "The Jerusalem Post" qəzetinin dərc etdiyi yazıdan gedir. Məqalədə Osmanlı dövlətində guya ermənilərin sistematik şəkildə öldürülməsindən bəhs olunur. Müəlliflər qeyd edirlər ki, İsrail soyqırımdan sonra qurulan bir dövlət kimi, hökumət tərəfindən qırğınlara və sistematik qətllərə məruz qalan azlıq olmağın nə olduğunu çox yaxşı bilir. Müəlliflər ABŞ Konqresinin Nümayəndələr Palatasının artıq "erməni soyqırımı"nı tanıyan qətnamə qəbul etdiyini də xatırladırlar.

Yəhudi jurnalistlər "xüsusən indi Türkiyə Prezidenti Ərdoğanın İsraili təhdid etməyə davam etdiyi zaman buraxılmış səhvləri düzəltməyin vaxtının gəldiyini" düşünürlər.

İsraildə qondarma "soyqırım"la bağlı çağırışların artması təəssüf doğurur. Ona görə ki, siyasi münasibətlərdəki fikir ayrılıqları səbəbindən tarixə bu cür yanaşmaq doğru deyil. Yəhudilər nəzərə almalıdırlar ki, bir vaxtlar məhz ermənilər nasistlərlə fəal əməkdaşlıq edərək onları qırıblar. Bu heç də uzaq tarixdə baş verməyib. Başqa bir tərəfdən, bu gün İsrailə Azərbaycan arasında çox yaxşı münasibətlər mövcuddur. İsrail belə addım atsa, o zaman bu, Azərbaycanla olan münasibətlərə də təsirsiz ötüşməyəcək.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, İsraildə belə çağırışların səslənməsi təəssüf doğurur: "İsraildə müəyyən qüvvələr var ki, onlar erməni lobbisi ilə sıx təmasdadır və onların sifarişini yerinə yetirirlər. ABŞ-da yəhudi lobbisində bir qrup da Türkiyə əleyhinə erməni lobbisi

*"İstənilən halda, bunun kampaniya xarakteri alması zərərli tendensiyadır"*

ilə əməkdaşlıq edir. Ona görə də biz İsraildə və ABŞ-da ermənipərəst siyasətin aktivləşməsini müşahidə edirik. Hesab edirəm ki, İsraildə sabiq iki nazirin qondarma "soyqırım"la bağlı çağırışı heç də təsadüfi deyil. Fikrimcə, onların bu çağırışı İsrail dövlətinin mövqeyini dəyişə bilməz. Ancaq, istənilən halda, bunun kampaniya xarakteri alması zərərli tendensiyadır. Gərək yəhudilər bəzi dairələrə belə fürsət verməsinlər. Çünki İsrail belə bir addım atsa, bunun bir sıra mənfi fəsadları olacaq. Azərbaycanla İsrail arasında sıx siyasi, hərbi-texniki əməkdaşlıq mövcuddur. Məhz erməni lobbisi də bu əlaqələri zəiflətməyə çalışır. Hesab edirəm ki, rəsmi Bakı İsraildə lobbi fəaliyyətlərini genişləndirməli, erməni avantürasının qarşısını almalıdır. İsraildə müəyyən qruplar yalnız İsrail-Azərbaycan əlaqələrinə kölgə salmaq üçün çalışırlar. Hesab edirəm ki, bunların qarşısı alınmalıdır. Sabiq İsrail nazirlərinə anlatmaq lazımdır ki, Türkiyəyə yönəlik hər hansı addım həm də Azərbaycana qarşıdır. Düşünürəm ki, bu yöndə səyləri artırmaq lazımdır".

***Vidadi ORDAHALLI***

# Azərbaycanın qeyri-neft sektorunda artım daha dinamik şəkil aldı...

**Ölkədə həyata keçirilən kadr və struktur islahatları, faktiki olaraq, Azərbaycanın iqtisadi tərəqqisində artıq yeni bir mərhələnin açılması ilə müşayiət olunmaqdadır. Belə vəziyyətdə diqqət çəkən əsas məqamlardan biri qeyri-neft sektorunda dinamik artımın qeydə alınmasıdır.**

Təhlillər göstərir ki, artıq bu gedişlə Azərbaycanın enerji resurslarından və onların dünya bazarlarında tez-tez dəyişən qiymətlərindən asılılığı tam aradan qalxacaq.

Bütün bunların kökündə dayanan başlıca faktor isə məhz reallaşdırılan islahatlardır. Xatırladaq ki, hələ 2015-ci ildən başlayaraq ölkə məhz bu islahatlarla yeni inkişaf mərhələsinə qədəm qoyub. İndi Azərbaycanda artıq post-neft dövrünün iqtisadiyyatının qurulması müşahidə olunur. İqtisadi şaxələndirilmə, idarəetmədə şəffaflığın yüksəldilməsi, ictimai nəzarətin gücləndirilməsi, "kölgə iqtisadiyyatı"nın aradan qaldırılması, məmur özbaşınalığına son qoyulması qeyd edilənlərin real təzahürləri sayılır. İnstitusional islahatların dərinləşdirilməsi, dövlət idarəetmə strukturlarının təkmilləşdirilməsi də bu istiqamətdə mühüm addımlardır. Həmçinin əhalinin rifah səviyyəsinin yüksəldilməsi istiqamətində sosial islahatlar paketi reallaşdırılır, sistemli struktur və kadr islahatları həyata keçirilir, gənc kadrlara, savadlı mütəxəssislərə geniş meydan verilir. Bunlar isə nəticə etibarı ilə ümumi inkişafa müsbət təsir edir. Elə bütün bunların nəticəsidir ki, artıq qeyri-neft sektoru iqtisadiyyatda xüsusi çəkisini artırır. Gələn il gəlirlərin formalaşmasında, ümumi iqtisadi inkişafda qeyri-neft seketorunun payının daha da artması bu mənada qaçılmaz sayılır. İqtisadiyyat naziri Mikayıl Cabbarov da təsdiq edir ki, gələn il neft-qaz sənayesi ilə yanaşı, qeyri-neft sektorunda da əhəmiyyətli artım gözlənilir. Həyata keçirilən kompleks tədbirlər nəticəsində 2020-ci ildə qeyri-neft sahəsində 8,8 faiz artım proqnozlaşdırılır.



Nazir bildirib ki, növbəti ildə qeyd olunan proqnozların reallaşdırılması üçün biznes mühitinin yaxşılaşdırılması, sahibkarlıq sahəsində yoxlamaların dayandırılması və digər addımların davam etdirilməsi önəmlidir.

Maliyyə naziri Samir Şərifov da bildirir ki, 2020-ci ilin dövlət büdcəsini səciyyələndirən əsas amillərdən biri qeyri-neft sektorunun inkiaşfı ilə bağlıdır. Nazir qeyd edib ki, 2020-ci ildə dövlət büdcəsinin 43,9 faizi qeyri-neft, 56,1 faizi isə neft gəlirlərinin payına düşəcək. Hesablama Palatasının sədri Vüqar Gülməmmədov bu fonda qeyd edir ki, artıq cari ildə dövlət büdcəsinin qeyri-neft gəlirləri əhəmiyyətli dərəcədə artıb. O həm də vurğulayır ki, 2020-ci ilin dövlət büdcəsi müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın proqnozlaşdırılan ən böyük büdcəsidir. Yuxarıda qeyd olunduğu kimi isə, gələn il artıq bu büdcənin az qala yarısı məhz qeyri-neft sektrru hesabına formalaşacaq. Ekspertlər də qeyd edir ki, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, vergi uçotunun bərpası və biznesin öz dövriyyələrini leqallaşdırması istiqamətində əldə olunmuş nailiyyətlər bu nəticələri yaradır. Belə vəziyyət həm də qeyri-neft sektoru üzrə ixrac və valyuta daxilolmalarının miqdarını artırır.

Qeyd edək ki, bu ilin ilk üç rübündə qeyri-neft sektoru üzrə 1 milyard 413 milyon dollar dəyərində ixrac reallaşdırılıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin 9 ayında qeyri-neft sektoru üzrə ixracın dəyəri 206 milyon dollar və ya 17 faiz artıb. Bu ilin yanvar-sentyabr aylarında Azərbaycan qeyri-neft məhsullarını əsas etibarı ilə Rusiyaya, Türkiyəyə, İsveçrəyə, Gürcüstana, İtaliyaya, ərəb ölkələrinə göndərib. İlin sonuna kimi qeyri-neft ixracının 2 milyard dolları ötməsi, gələn il isə bu rəqəmin azı 2,5 milyard dollara çatması gözlənir. Bu isə qeyri-neft sektoru üzrə valyuta gəlirlərini də artırır. Bu məsələdə turizm sektoru da öz sözünü deyir.

Məlumat üçün bildirək ki, cari il yanvar-sentyabr aylarında Azərbaycana 191 ölkədən 2,4 milyon və ya ötən ilin eyni ayları ilə müqayisədə 9,5 faiz çox əcnəbi gəlib. Bu ilin sonuna kimi turistlərin sayının 3 milyonu keçməsi gözlənir. Onların xərclədikləri vəsaitin miqdarının 2,5 milyard dollar olması da proqnozlaşdırılır. Bütün bunlar təsdiq edir ki, Azərbaycan iqtisadi artım tempini daha çox qeyri-neft sektorunda formalaşdırır. Ekspertlərə görə, bu da məhz iqtisadi inkişafın və iqtisadiyyatda əldə edilən artımın mərhələli şəkildə neft sektorunun qeyri-neft sektoruna transfer olması mənasına gəlir. Yəni qeyri-neft sektoru əldə edilən iqtisadi artıma dominant olaraq təsir göstərir. Bütün bunlar, qeyd olunduğu kimi, 2015-ci ildən sonra keçirilən islahatlar nəticəsində iqtisadiyyatın mərhələli şəkildə şaxələnməsinin nəticəsidir.

**Digər sektorlarda - aqrar, turizm, xidmət sektorlarında artım tempinin proqnozlaşdırıldığından daha çox olması iqtisadi nəticələrin bundan sonra daha yüksək olacağını deməyə əsas verir. Həm də bu islahatlardan irəli gəlir ki, Dünya Bankı Azərbaycanı 20 ən çox islahat aparan ölkə siyahısına daxil edib. Dünya İqtisadi Forumunun son hesabatında Azərbaycan öz mövqeyini 11 pillə möhkəmləndirə bilib. "Fitch" və "Moody`s" agentliklərinin hesabatlarında da Azərbaycan stabil mövqeyini qoruyub saxlayıb. Bunlar o deməkdir ki, qeyri-neft sektorunun inkişafı ilə bağlı aparılan islahatlar ölkəmizin beynəlxalq hesabatlardakı mövqeyinə müsbət təsir göstərir. Ekspertlər qeyd edir ki, gələn ildə də ölkədə daha dərinləşmiş iqtisadi və sosial islahatları müşahidə etmək mümkün olacaq. Bu isə iqtisadi inkişafda daha böyük nailiyyətlərin əldə olunması deməkdir.**

***Tahir TAĞIYEV***

**Noyabrın 6-da Ağcabədidə kənd təsərrüfatı sahəsində uçotun dürüstləşdirilməsi və şəffaflaşdırılması ilə bağlı məsələlərə həsr olunmuş zona müşavirəsi keçirilib.**

# Azərbaycanın kənd təsərrüfatının hesabat rəqəmləri arasında ciddi uyğunsuzluqlar aşkarlandı




Vergilər Nazirliyinin Media və kommunikasiya idarəsindən "Bakı-Xəbər"ə verilən məlumata görə, tədbirdə ölkəmizin Qarabağ bölgəsində yerləşən rayonlarının icra hakimiyyətlərinin rəhbər vəzifəli şəxsləri, Kənd Təsərrüfatı Nazirliyinin Dövlət Aqrar İnkişaf Mərkəzlərinin əməkdaşları, Vergilər Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Dövlət Statistika Komitəsinin, Əmlak Məsələləri Dövlət Komitəsinin yerli qurumlarının, qəsəbə, kənd icra nümayəndəliklərinin və bələdiyyələrin rəhbərləri iştirak edib.

Tədbir iştirakçılarını salamlayan Ağcabədi Rayon İcra Hakmiyyətinin başçısı Şahin Məmmədov kənd təsərrüfatında aparılan islahatların əhəmiyyətindən danışıb, əldə olunmuş ilkin nəticələr barədə məlumat verib.

Müşavirədə çıxış edən Vergilər nazirinin müavini Sahib Ələkbərov bildirib ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən iqtisadi siyasətə uyğun olaraq, kənd təsərrüfatının inkişafı prioritet vəzifə kimi müəyyən edilib və son illər bu sahəyə böyük investisiyalar qoyulub. Qeyd olunub ki, aparılan islahatlar, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı atılan addımlar öz bəhrəsini verir. Cari ilin 9 ayında qeyri-neft sənayemiz 15 faizdən çox, kənd təsərrüfatı isə 7 faizdən çox artıb.

Nazir müavini ölkə başçısının cari ilin 9 ayının yekunlarına həsr olunmuş müşavirədə vurğuladığı kimi, kənd təsərrüfatının mövcud potensialından daha səmərəli şəkildə istifadə olunmasının vacibliyini tədbir iştirakçılarının diqqətinə çatdırıb və bu sahədə uçotun dürüstləşdirilməsini və şəffaflaşdırılmasını zəruri edən səbəblərə, mövcud problemlərin aradan qaldırılması istiqamətində vergi orqanları və aidiyyəti dövlət qurumlarının birgə əməkdaşlığı və digər mühüm məsələlərə toxunub. Bildirilib ki, aqrar sahədə uçotun və hesabatlılığın hazırkı səviyyəsi qənaətbəxş hesab edilə bilməz və kənd təsərrüfatı məhsullarının istehsalçıları tərəfindən müxtəlif dövlət orqanlarına və bələdiyyələrə təqdim olunan hesabatlardakı rəqəmlər arasında ciddi uyğunsuzluqlar mövcuddur. Görüləcək işlərin məqsədi kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən şəxslərin vergiyə cəlb edilməsi yox, digər aidiyyəti dövlət qurumları və bələdiyyələrlə birlikdə real vəziyyəti düzgün əks etdirən uçotun qurulması və şəffaflığın təmin olunmasıdır.

S.Ələkbərov bildirib ki, avqust ayından etibarən bütün ölkə üzrə kənd təsərrüfatı məhsulları istehsalçıları və kənd təsərrüfatı təyinatlı torpaqların mülkiyyətçilərinin uçota alınması prosesinə start verilib və ötən müddət ərzində 40 minə yaxın şəxs tərəfindən vergi uçotuna alınmaqla bağlı ərizə təqdim edilib, qeydiyyatda olan bir çox vergi ödəyicilərinin uçot məlumatları dəqiqləşdirilib. Vurğulanıb ki, uçotun dürüstləşdirilməsi və şəffaflaşdırılması son məqsəd deyil və şəffaf uçot sisteminin qurulması istehsal olunan kənd təsərrüfatı məhsullarının real həcmi barədə düzgün məlumatların əldə edilməsinə, mövcud kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadə olunmasının səmərəliliyinin artırılmasına, dövlət tərəfindən ayrılan subsidiyaların, yardımların, kənd təsərrüfatı məhsullarının istehsalçılarına verilən kreditlərin yalnız məhsul istehsalçılarının fəaliyyətinin genişləndirilməsinə sərf olunması hesabına istehsalın həcminin daha böyük templərlə artırılmasına və nəticə etibarilə bu sahədə çalışanların rifahının yüksəldilməsinə nail olunmasına xidmət etməlidir.

Tədbirdə Vergilər Nazirliyinin Yerli qurumların fəaliyyətinin əlaqələndirilməsi Baş İdarəsinin rəisi Elçin Bəylərov kənd təsərrüfatı sahəsində uçot və hesabatlılığın təşkili və tətbiqi sahəsindəki mövcud vəziyyət barədə təqdimatla çıxış edib.

Vergilər Nazirliyinin 8 saylı Ərazi Vergilər Baş İdarəsinin rəisi Zaur Adilov rəhbərlik etdiyi qurumun əhatə dairəsinə aid olan rayonlarda kənd təsərrüfatında uçotun dürüstləşdirilməsi və şəffaflaşdırılması ilə bağlı görülən işlər, qarşıya çıxan suallar və problemlər barədə məlumat verib.

Sonda müşavirə iştirakçılarının sualları cavablandırılıb.

**Son illər qeyri-neft sektorunun inkişafı istiqamətində atılan addımlar sayəsində Azərbaycanın kənd təsərrüfatında müəyyən irəliləyiş əldə olunub. Ancaq buna baxmayaraq, hələ də aqrar sahədə müəyyən problemlər yaranır. Baxmayaraq ki, kənd təsərrüfatı qeyri-neft sektorunun özəyi hesab olunur.**

# Üzümçülük ölkəsi Azərbaycan kişmiş idxal edir, niyə...



***Qadir Bayramlı:** "Kişmiş istehsalına nail olsaq, ölkədən müvafiq valyuta axınının qarşısını ala bilərik"*

Təbiətin verdiyi imkanlardan, hökumətin göstərdiyi dəstəkdən istifadə edərək xarüqələr yaratmaq olar.

Azərbaycanda qeyri-neft sektorunun strukturunda aqrar bölmə xüsusi çəkiyə malikdir. Çünki Azərbaycan kənd təsərrüfatı bitkilərinin əkilib-becərildiyi əlverişli ölkələr sırasında dayanır. İl ərzində bir neçə dəfə məhsul götürmək mümkündür. Azərbaycan, həmçinin, mədəni çoxillik bitkilərin, o cümlədən, üzümçülüyün vətənidir. Uzun tarixə malik üzümçülük Azərbaycanda ötən əsrin 70-ci illərində misli görünməmiş yüksəliş yoluna çıxıb, illik məhsul istehsalı bir milyon tonu ötüb keçib. Üzüm istehsalının lazımi səviyyədə olmasına baxmayaraq, təəssüf ki, yerli üzüm sortlarından əlavə dəyər formalaşdırmaq hələ mümkün deyil.

Quru meyvələr siyahısına aid olan kişmişə tələbat hər zaman yüksək olub. Mütəxəssislərin bildiriyinə görə, digər çərəzlərlə müqayisədə kişmişin kalori dəyəri daha yüksəkdir.

Bu gün də mətbəximizdə gündəlik olaraq kişmişdən geniş istifadə olunur. Amma təəssüflər olsun ki, Azərbaycana kişmiş daha çox xarici ölkələrdən idxal olunur. Maraqlıdır, ölkəmizdə üzüm istehsalı geniş olduğu halda, kişmiş niyə hələ də idxal olunur?

Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti Qadir Bayramlı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bazarda ən ucuz kişmişin qiyməti beş manat təşkil edir: "Qonşu ölkə Türkiyə bu sahədə lider hesab olunur. Amma təəssüflər olsun ki, bizdə vəziyyət qənaətbəxş deyil. Bizdə meyvələr əsasən primitiv üsullarla qurudulur və çox az bir miqdarda olur. Kişmiş daha çox Azərbaycana idxal edilir. Əslində, kişmiş perspektivli sahələrdən və böyük tələbat olan məhsullardan biridir. Hesab edirəm ki, biz xarici təcrübədən yararlanmalıyıq. Kişmişin hazırlanması üçün xüsusi emal texnologiyası və müəssisələr fəaliyyət göstərməlidirlər. Ayrı-ayrı bölgələrimizdə yerli üzüm sortlarımız əkilərək emal edildikdən sonra kişmiş hazırlamaq olar. Bununla həm yerli tələbatı ödəyə, həm də məhsul ixracını təşkil edə bilərik. Kişmiş elə bir məhsuldur ki, dünya bazarında ona tələbat çox böyükdür. Qiymətlər də kifayət qədər yüksəkdir. Yəni gəlirli sahələrdən biridir. Bazarda ən ucuz kişmişin qiyməti beş manatdan başlayır. Ona görə də emal müəssisələri yaradılarsa, bu işin təşkilinə nail ola bilərik. Üzümün qurudulması çox əziyyətli və maya dəyəri baha olan prosesdir. İbtidai üsullarla böyük miqdarda məhsul əldə etmək mümkün deyil. Bunun üçün xüsusi texnologiya tələb olunur. Bu müəssisələr ölkəmizin müxtəlif rayonlarında yaradıla bilər.

*"Bizdə meyvələr əsasən primitiv üsullarla qurudulur"*

Çünki əksər rayonlarda üzümçülük sahələri mövcuddur. Digər tərəfdən, fermerlərin təşkilatlanmasına, bu sahədə maarifləndirmə işinin aparılmasına və onlara kreditlərin verilməsinə ehtiyac var. Kişmiş istehsalına nail olsaq, ölkədən müvafiq valyuta axınının qarşısını ala bilərik".

***Günel CƏLİLOVA***

# Azərbaycanın yol infrastrukturu 141 ölkənin arasında ən öncüllərdən biri oldu

## Aydın Hüseynov: "Bu yöndə ardıcıl görülən işlərin nəticəsidir ki, Azərbaycan yol infrastrukturunun keyfiyyətinə görə bir sıra Avropa ölkələrindən öndədir"

**Azərbaycan yol infrastrukturunun keyfiyyətinə görə bir sıra Avropa ölkələrini qabaqlayıb. Belə ki, Azərbaycan Dünya İqtisadi Forumunun hazırladığı "Qlobal rəqabətqabiliyyətlilik indeksi"nin "Yol infrastrukturunun keyfiyyəti" göstəricisində 141 ölkə arasında 27-ci yeri tutub.**



Azərbaycan bu göstəricidə Türkiyə (31-ci yer), Böyük Britaniya (36-cı yer), Litva (39-cu yer), İtaliya (53-ci yer) kimi ölkələri qabaqlayıb. Bu reytinqdə birinci yerdə Sinqapur qərarlaşıb.

Yol infrastrukturunun keyfiyyətinə görə Azərbaycanın 141 ölkə arasında 27-ci yerdə olması təbii ki, olduqca yaxşı göstəricidir. Məlumdur ki, Azərbaycanda yol infrastrukturunun yaxşılaşdırılması ilə bağlı dövlət tərəfindən yatırılan sərmayələr artıq öz müsbət nəticəsini verir. Bu templə davam etsə, növbəti illərdə dərc olunacaq reytinq cədvəllərində yol infrastrukturuna görə Azərbaycan daha ön sırada qərarlaşacaq. Ölkədə şimal, cənub və digər istiqamətlər üzrə yol infrastrukturunun inkişafı ilə bağlı layihələr həyata keçirilir. Mütəmadi olaraq Prezident İlham Əliyev tərəfindən yolların yenidən qurulması və müasir standartlara cavab verməsi ilə bağlı qərarlar verilir. Yeni yolların salınması, təmiri, mövcud yol infrastrukturunun inkişafı ilə bağlı sərəncamlar imzalanır. Görünən odur ki, bu sahəyə yatırılan sərmayələr nəticəsində Azərbaycanın yol infrastrukturu bu sahə ilə bağlı keçirilən sorğularda yüksək qiymətləndirilir.

Məsələyə münasibət bildirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, bu sahədə ardıcıl görülən bir sıra sistemli işlər Azərbaycanın ciddi uğur əldə etməsinə gətirib çıxarıb: "Azərbaycanda yol infrastrukturunun inkişafı ilə bağlı bir sıra layihələr qəbul edilib. Bu layihələrin həyata keçirilməsi nəticəsində ölkəmiz yol infrastrukturunun keyfiyyətinə görə 27-ci yerdə qərarlaşıb. Bu nəyin nəticəsində əldə olunub? Birinci növbədə "Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" qəbul edildi. Cənab Prezidentin birbaşa qərarı ilə belə proqram hazırlandı. Həmin proqram çərçivəsində görülən işlərdən biri də ölkənin yol infrastrukturunun yenidən qurulması idi. Gərək regionlarda yol infrastrukturu yüksək səviyyədə olsun ki, qeyri-neft sektoru inkişaf etsin, sahibkarlar sərmayə qoysun, yeni iş yerləri açsınlar.

*"Sözügedən yollar ölkəmizin digər dövlətlərlə iqtisadi əlaqələrinin intensivliyini təmin edir"*

Turizmin inkişafında da yol infrastrukturu mühüm rol oynayır. Çünki yaxşı yol infrastrukturu olmadan turistlər bölgələrə maraq göstərmirlər. Bütün bunlar, nəticə etibarilə, ölkə ərazisində yol infrastrukturunun əhəmiyyətli dərəcədə inkişaf etməsinə gətirib çıxardı. Magistral yolları əsaslı şəkildə genişləndirildi. Sözügedən yollar Azərbaycanın digər ölkələrlə iqtisadi əlaqələrinin intensivliyini təmin edir. Bu yöndə ardıcıl görülən işlərin nəticəsidir ki, Azərbaycan yol infrastrukturunun keyfiyyətinə görə bir sıra Avropa ölkələrindən öndədir".

*Vidadi ORDAHALLI*

# Azərbaycana daha bir qeyri-obyektiv qiymət - xarici dil bilgilərinə görə 85-ci yer?...

## Kamran Əsədov: "Ölkəmizdə xarici dillərin tədrisində əsas dil kimi ingilis dili çox böyük üstünlük təşkil edir"

**Müasir dövrdə əlavə dil bilmək böyük üstünlük hesab olunur. Ona görə də orta məktəblərdə müxtəlif xarici dillər tədris olunur. Ölkədə rus, ingilis, alman və fransız dillərinin tədrisi geniş vüsət alıb. Müasir texnologiyaların, internet resurslarının əsasən xarici dillərdə olması bu dilləri öyrənən şagirdlərin də təfəkküründə mühüm rol oynayır.**




Xarici dil biliyi karyeranın qurulmasında da mühüm amil sayılır. Bu gün ölkədə xarici dil kimi əsasən rus və ingilis dilinin öyrədilməsinə üstünlük verilir. Bəllidir ki, orta məktəblərdə ibtidai siniflərdə xarici dil kimi əsasən ingilis dili fənni tədris olunur. Kiçikdən böyüyə hər kəsin ingilis dilinə böyük marağı var. Elə bu səbəbdən də bu gün ölkəmizdə ingilis dilini bilən, qeyd olunan dildə sərbəst şəkildə danışanlar yetərincədir. Ancaq beynəlxalq reytinq hesabatlarında isə bunun əksi qeyd olunur. Belə ki, Azərbaycan ingilis dilini ən zəif bilən ölkələr siyahısında qərarlaşıb.

"Education First" xarici dillərin monitorinqi beynəlxalq şirkəti "ingilis dili biliyi indeksi"ni dərc edib. Siyahıda dünyada ingilis dilində ən yaxşı və ən pis danışan ölkələr sıralanıb. 100 ölkədə 2,3 milyon nəfər arasında aparılmış sorğuya əsasən, ilk yerləri Niderland, İsveç və Norveç tutub. Azərbaycanın adı isə siyahıda 85-cidir.

Ekspertlər hesab edirlər ki, Azərbaycanın ingilis dilini bilmə səviyyəsinə görə zəif ölkələr sırasında yer alması qərəzlidir.

Təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, orta ümumtəhsil məktəblərində xarici dilin tədrisi iki istiqamətdə - əsas və ikinci xarici dil olaraq keçirilir: "Əsas xarici dil birinci sinifdən, ikinci xarici dil isə beşinci sinifdən tədris olunur. Tədris planına dair qeydlərdə də göstərildiyi kimi, istər əsas, istərsə də xarici dili seçim hüququ valideynlərə verilir. Onlar müəyyən olunmuş dillər - ingilis, alman, fransız, rus, ərəb və fars dilləri arasında seçim etməkdə azaddırlar. Mövcud qanunvericiliyə əsasən, hətta valideynlərin seçimindən asılı olaraq, zərurət yaranarsa, eyni sinifdə iki xarici dil qrupu da təşkil oluna bilər.

Ölkəmizdə daha çox tədris olunan xarici dillərə gəlincə, xarici dillərin öyrənilməsi ilə bağlı ümumi bir tələbat var. Bu tələbat istəsək də, istəməsək də, cəmiyyətin özü tərəfindən formalaşır. Hər birimiz bilirik ki, beynəlxalq aləmə əsas çıxış dili ingilis dilidir. Bu baxımdan ölkəmizdə xarici dillərin tədrisində əsas dil kimi ingilis dili çox böyük üstünlük təşkil edir. Təxmini hesablamalara görə, məktəblərimizdə birinci xarici dil kimi 90-95 faiz ingilis dili tədris olunur. Əsas xarici dil ingilis dili olan məktəblərdə isə ikinci xarici dilin daha çox rus dili olduğu müşahidə edilir. Təbii ki, ikinci xarici dil olaraq fransız, alman dilləri tədris olunan məktəblərimizə də rast gəlinir. Bundan başqa, əsas xarici dil fransız, alman dili olan məktəblərimiz də var. Lakin bu məktəblərin sayı çox azdır. Ərəb dili tədris olunan məktəblərimizə isə çox nadir hallarda rast gəlinir".

*"Azərbaycanın Avropaya inteqrasiyasından sonra ingilis dilinə tələbat artdı"*

Həmsöhbətimiz onu da vurğuladı ki, təqribən 15 il əvvəl orta məktəblərdə ingilis dili beşinci sinifdən başlayaraq tədris olunurdu. Bu sinifdən başlayaraq on birinci sinfə kimi tədris olunurdu: "Və dərsliklər hər il deyil, bir neçə il sonra dəyişilirdi. Lakin Azərbaycanın Avropaya inteqrasiyasından sonra ingilis dilinə tələbat artdı. Hazırda istənilən sahədə çalışan şəxslər, tələbələr, şagirdlər bu dili öyrənməyə can atırlar.

Hazırda məktəblərimizdə ingilis dili dərsləri birinci sinifdən başlayaraq on birinci sinfə kimi tədris olunur. Əslində, bu ilk baxışdan normaldır. Nəzərə almaq lazımdır ki, bizdə şagirdlərin mühiti başqadır, yəni xaricdəki kimi deyil. Məsələn, xaricdə uşaq məktəbə getməmişdən əvvəl, yəni uşağın məktəbəqədər dövrü zamanı da ingilis dili dərsləri keçirilir. Təbii ki, yaşa uyğun şəkildə. Və uşaq artıq məktəbə gedəndə daha rahat şəkildə dərslikləri mənimsəməyə başlayır. Qəbul və buraxılış imtahanlarının nəticələrini təhsil edəndə görürük ki, şagirdlər xarici dildən minimum tələbləri ödəyiblər. Azərbaycan bölməsində buraxılış imtahanında iştirak edən 9-cu sinif şagirdlərinin 55,85 faizi ana dili fənni üzrə, 57,98 faizi riyaziyyat fənni üzrə "2" və "3" qiyməti alıblar. Həmin bölmədə ana dili fənni üzrə şagirdlərin 44,15 faizi, riyaziyyat fənni üzrə isə 42,02 faizi "4" və "5" qiyməti alıb. Rus bölməsində isə buraxılış imtahanında iştirak edən 9-cu sinif şagirdlərinin 45,56 faizi ana dili fənni üzrə, 44,16 faizi riyaziyyat fənni üzrə "2" və "3", ana dili fənni üzrə şagirdlərin 54,44 faizi, riyaziyyat fənni üzrə isə 55,84 faizi "4" və "5" qiyməti alıblarsa, 11-ci siniflər üzrə ortalama qiymətlərdən belə görünür ki, ana dili üzrə "2" qiyməti alanların sayı ingilis dilindən "2" alanların sayından çoxdur. Ana dilindən "5" qiyməti alanların faizi (20,47) isə ingilis dilindən "5" qiyməti alanların faizindən (30,2) daha aşağıdır. Yəni həm IX, həm də XI siniflərdə şagirdlərin ingilis dilindən nəticələri digər fənlərlə müqayisədə yaxşıdır".

*Günel CƏLİLOVA*

# Azərbaycanda geoturizm problemləri...

## Ruslan Quliyev: "Artıq "Turizm haqqında" qanun layihəsi hazırlanıb, bu layihədə də məsələ öz əksini tapır"

**Bütün dünyada populyar olan geoturizm Azərbaycanda hələ formalaşmayıb. Geoturizm üçün əlverişli ölkələrdən biri olan Azərbaycanda bu sahənin inkişafına ciddi ehtiyac var. Məlum olduğu kimi, Azərbaycanın zəngin relyefi, palçıq vulkanları, digər bu tip təbii resursları imkan verir ki, turizmin bu istiqaməti inkişaf etsin.**

Coğrafiya üzrə mütəxəssislərin verdiyi məlumata görə, ölkəmizdə geoturizm xəritəsinin hazırlanması zəruri bir məsələyə çevrilib. Bu istiqamətdə xəritələrin tərtibi geoturizm məqsədilə təbiət abidələrinin öyrənilməsinə böyük imkan yaradacaq. Ölkə ərazisində mövcud olan zəngin geoturizm obyektlərinin əhəmiyyətli dərəcədə inkişaf etdirilməsi saysız turistin gəlməsini reallaşdıracaq.

Uzun müddətdir respublikamızın ayrı-ayrı yerlərində geoparkların yaradılması da gündəmdədir. Geoparklar beynəlxalq təyinatlı müxtəlif və ya eyni cür geoloji miras nümunələrinin bir yerdə toplanmasının, idarə olunmasının nəzərdə tutulduğu xüsusi mühafizə olunan təbiət sahəsidir.

Onu da vurğulayaq ki, geoparklar vulkan, sunami və zəlzələ kimi geoloji təhlükələrlə bağlı fəlakətlərə hazırlığın görüldüyü geoloji elmi məkandır. Həmçinin, iqlim dəyişikliyi məlumatlarının saxlandığı yerlərdir. Geoparklar geoloji və təbii gözəlliklərin qorunub saxlandığı və onların gələcək nəsillərə ötürüldüyü, bu sahələrə edilən geoturizm marşrutları ilə Yer kürəsinin keçmişinin öyrənildiyi ərazilərdir.

Onu da qeyd edək ki, AMEA-nın akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun Paleocoğrafiya şöbəsinin aparıcı elmi işçisi, geologiya-mineralogiya üzrə fəlsəfə doktoru Rəşid Fətəliyev Siyəzən və Xızı rayonları ərazisində çöl tədqiqat işləri aparıb. İnstitutdan "Bakı-Xəbər"ə verilən məlumata görə, tədqiqatlara əsasən, elmi ədəbiyyatda "Köhnə dərəbinə kəsilişi" kimi tanınan Giləzi-Xızı yolunun sağında, Vərəftə silsiləsinin cənub-şərq yamacı boyunca müşahidə olunan müxtəlif rəngli gil layları geoloji, geomorfoloji və paleocoğrafi cəhətdən öyrənilib. Bu məqsədlə Böyük Qafqazın şimal-şərq yamacında yer almış geoloji-təbiət abidələrini, o cümlədən, əsasən Xızır-Zində ziyarətgahı kimi tanınan məşhur Beşbarmaq dağı təbiət abidəsini formalaşdıran süxurlardan laboratoriya analizləri üçün süxur nümunələri götürülüb, onların ümumi stratiqrafik vəziyyəti, eləcə də yerləşdikləri ərazinin geoturizm imkanları araşdırılıb.

Bir çox alim İlandağ geoparkının yaradılmasını təklif edir. Məlumatlara görə, artıq bu istiqamətdə yaradılan işçi qrupu regionlarda tədqiqatlar aparıb və nadir geoloji obyektlərin (geosaytların) monitorinqini keçirib. Aparılan tədqiqatlar nəticəsində ölkə ərazisində UNESCO və ProGEO-nun tələblərinə uyğun gələn və səciyyəvi geosaytları özündə cəmləşdirən Culfa (İlandağ), Qırməki, Xaltan və Basqal milli geoparklarının yaradılması məqsədəuyğun sayılıb. Bu barədə 2013-cü ildə nəşr edilmiş "Azərbaycan Respublikasının geoloji irsi" kitabında da məlumat verilib. Bu baxımdan mühafizə olunan ərazilərin təşkilində "üçü birində" (geosaytlar, memarlıq-arxeoloji abidələr, biomüxtəliflik) modelini tətbiq etməklə Naxçıvan Muxtar Respublikasında İlandağ geoparkının (geoarxoparkın) yaradılması daha məqsədəuyğun sayılır. Ərazidə 1977-ci ildə yaradılmış Ordubad Tarixi-Memarlıq Qoruğu və 2003-cü ildən fəaliyyətdə olan Zəngəzur Milli Parkı bu qurumun tərkibinə daxil edilə bilər. Burada geoparkın yaradılmasına üstünlük verən digər bir səbəb ərazinin sərhədyanı bölgədə yerləşməsidir. Arazın sağ sahilində, İran İslam Respublikasının ərazisində hazırda Culfa geoparkının fəaliyyəti UNESCO və ProGEO tərəfindən dəstəklənən daha yüksək sərhədyanı geoparkın yaradılması üçün şərtlərin mövcudluğunu aydın göstərir. Bununla bağlı Geologiya və Geofizika İnstitutunun nümayəndələri UNESCO-nun dəvətilə Geoelmlər və Geoparklar Proqramının Parısdə keçirilən 3-cü açıq sessiyasında İlandağ geoparkının təşkilinin mümkünlüyü barədə məruzə ilə çıxış ediblər. Sessiyanın katibliyi Azərbaycan alimlərinin təşəbbüsünü maraqla qarşılayıb və geopark yaradılacağı halda onun Qlobal Geoparklar Sisteminə, Ümumdünya İrs Siyahısına salınmasına və müvafiq təşkilati məsələlərin həllinə dəstək verəcəyini bəyan edib.

Məlumatlara görə, İlandağ geoparkının yaradılması təbiətin və memarlıq abidələrinin mühafizəsi üzrə yerli əhalinin iştirakı ilə vahid mexanizmin yaradılmasına imkan verir. Eyni zamanda, geoturizmin inkişafı muxtar respublikada iqtisadi fəaliyyətin və yerli təşkilatların inkişafında sabitliyə, həmçinin, maarifləndirici-tərbiyəvi fəaliyyətin təşkilinə dəyərli dəstək ola bilər.



"...ölkədə geoparkların yaradılması işi də sürətlənməlidir ki, biz bu istiqamətdə turistləri ölkəmizə cəlb edə bilək"

Turizm üzrə mütəxəssis Ruslan Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanda geoturizmin inkişafı üçün münbit şərait, təbii resurslar mövcuddur, sadəcə, bütün bunları inkişaf etdirmək lazımdır. "Geoturizm tematik bir turdur. Düşünürəm ki, geoturizmin inkişafını ekoturizmin inkişafından kənarda görmürük.

Bu sahəyə kompleks yanaşma tələb olunur. Əslində, ekoturizm, geoturizm və yaşıl-kənd turizmi bir-birinə bənzəyir. Azərbaycanda geoturizmin inkişaf etdirilməsi ilə bağlı Strateji Yol Xəritəsində də müəyyən müddəalar var. Artıq "Turizm haqqında" qanun layihəsi hazırlanıb, bu layihədə də məsələ öz əksini tapır. Fikrimcə, geoturizmlə bağlı maraqlı faktlar açıqlanmalıdır. Tutalım, dünyada məşhur olan və "Ginnesin rekordlar kitabı"na düşən palçıq vulkanlarının 45 faizi Azərbaycandadır. Bu cür məlumatlardan istifadə edərək maraqlı təqdimatlar edilməlidir. Bundan başqa, ölkədə geoparkların yaradılması işi sürətlənməlidir ki, biz bu istiqamətdə turistləri ölkəmizə cəlb edə bilək".

R.Quliyev hesab edir ki, geoturizmin inkişaf etdirilməsi bizə kifayət qədər turist qazandıra bilər.

***İradə SARIYEVA***

**Bəzi sənət adamları onlara bəslənən ictimai sevgi və hörmətdən sui-istifadə etməyi həyat tərzinə çeviriblər. Bədii qiraət sahəsində, eləcə də muğam ifaçılığında öz yeri olan müəyyən sənət adamları var ki, onlar xalqı ancaq dildə sevir, əməldə isə xalqı, xalqın təmsilçilərini yada belə salmaq istəmirlər.**

# Sənət adamları Qarabağ şəhidlərinin övladlarının xeyir işinə "qiymət oxuyur"...



***Leyla Məmmədəliyeva:** "Xalq və əməkdar artistlərin şəhid ailələrinin məclisində bir-iki mahnı, şeir ifa etmək üçün şəhid ata-anasından külli məbləğdə pul tələb etməsi..."*

Bu yaxınlarda bir neçə şəhid ailəsi ilə söhbətdə qəribə halla rastlaşdıq. Şəhid ailələri öz övladlarının toyunda, məclisində iştirak etmələri üçün bir neçə xalq və əməkdar artistə müraciət ediblər. Təbii ki, onların məclisdə iştirak etməsi üçün şəhid ailələri qulplarından çıxan qədər sənətçilərə hörmət etməyi də düşünüblər. Şəhid analarından birinin arzusu olub ki, məclisdə hər kəsin tanıdığı bədii qiraətçi və xanəndə iştirak etsin. Onlar bununla bağlı həmin sənətçilərə müraciət etdikdə xanəndə 6-7 min manat, bədii qiraətçi isə 1500-2000 min manat pul istəyib, deyiblər ki, bu pul ödənəcəyi təqdirdə məclisə gələ bilərlər. Şəhid atanasına belə münasibət göstərən sənətçilərin adlarını etika naminə qeyd etmək istəmirik, amma təəssüf ki, pulu şəhid qanından, şəhid anasının gözüyaşlı arzusundan üstün tutanlar az deyil. Halbuki, həmin sənətçilər şəhid analarının xatirinə o məclislərdə təmənnasız da iştirak edə bilərdilər. Amma pul qazanmaq ehtirası hər şeydən güclü olduğu üçün, onlar öz bazar qiymətlərini şəhid ailələrinə də deməkdən çəkinmirlər.

Məsələ burasındadır ki, şəhid ata və analarına çox zaman bəzi xalq və əməkdar artistlərin saygısızlığının şahidi olmuşuq.

Ziyalılar belə sənətçilərin xalqın adından sui-istifadə etdiyini qeyd edirlər.

Ədəbiyyatşünas-alim Leyla Məmmədəliyeva bizimlə söhbətində bildirdi ki, şəhid ata və anasının dəvətinə pul müqabilində "hə" deyən sənətçilər çoxdur. Bəzilərinin son zamanlar şəhidlər, ata-ana haqqında mahnılar, şeirlər əzbərləyib məclislərdə ifa etdiyini və buna görə də külli miqdarda pul qazandığını deyən L.Məmmədəliyevanın sözlərinə görə, hətta bədii qiraətçilər var ki, ona hansısa şair kitab verdikdə belə həmin kitabı vərəqləyib arasında pul olub-olmadığını yoxlayır. "Bizim bəzi xalq və əməkdar artistlər var ki, onlar həddindən artıq pulgirdirlər və hətta öz yaxınlarının məclislərinə belə, təmənnasız getmirlər. Şəhidlər Azərbaycan xalqının qürur yeridir və hər bir insan şəhidlərin ruhuna, onların ata-anasına hörmət, saygı, sevgi bəsləməlidir. Mən özüm də dəfələrlə şahidi olmuşam ki, şəhid ailələrində düzənlənən məclislər zamanı şəhid anası deyir ki, filan müğənni toyda, məclisdə iştirak etsə, ürəyimdən olardı. Ananın arzusu ilə həmin sənətçilərlə ələqə yaradılır, vəziyyət onlara izah edilir və sənətçilərin də bir çoxu "mən məclisə filan qiymətə gedirəm, həmin məbləği verirsinizsə gəlirəm, vermirsinizsə vaxtımı almayın" deyirlər.

*"Şəhid övladının, nəvəsinin toyuna, məclisinə pulla getməyin özü ayıbdır"*

Bu yaxınlarda əməkdar artistlərdən biri, özü də tanınmış bədii qiraətçidir, şəhid atasından onların məclisində iştirak etmək üçün 1500 manat pul istəyib, deyib ki, qiymətim budur, iki-üç şeir deyəcəyəm və sizdən bu pulu alacağam. Şəhid atası ondan xahiş edib ki, həyat yoldaşım sizi məclisdə görmək istəyir, sizin ana haqqında dediyiniz şeir onun çox xoşuna gəlir, heç olmasa gəlin o şeiri deyin, imkan daxilində hörmətinizi edəcəyik. Həmin bədii qiraətçi bundan imtina edib.

Belə hallar çoxdur. Vətən torpağının düşməndən müdafiəsi uğrunda canından keçən şəhidlərin ata-analarına bu cür münasibət göstərmək bir sənət adamına, xalq və əməkdar artistə yaraşmaz. Xalq və əməkdar artistlərin şəhid ailələrinin məclisində bir-iki mahnı, şeir ifa etmək üçün şəhid ata-anasından külli məbləğdə pul tələb etməsi, onlara konkret qiymət deməsi vicdansızlıqdır. Məncə, elə adamlar nə xalqın adından danışa bilər, nə də şəhidin xatirəsini əziz tutduğunu deyə bilər. Onların buna mənəvi haqqı yoxdur. Şəhid övladının, nəvəsinin toyuna, məclisinə pulla getməyin özü ayıbdır" - deyə alim bildirdi.

*İradə SARIYEVA*

**Müəllimi ona şərq poeziyasının sirlərini öyrətdi, məşhur olub varlanmasına öz töhfəsini verdi, o da müəlliminə xilaf çıxmadı, onu alman oxucusuna təqdim edərək Avropada tanıtdı. Söhbət görkəmli azərbaycan şairi Mirzə Şəfi Vazehdən və onun alman tələbəsi Fridrix fon Bodenştedtdən gedir.**

# Mirzə Şəfi Vazeh Berlinin Humboldt universitetində



Noyabr ayının 1-də Xalq Bankın, "Q Gallery Berlin"nin və Azərbaycanın Almaniyadakı Səfirliyinin birgə təşkil etdiyi, dünyanın ən nüfuzlu təhsil ocaqlarından biri - Humboldt universitetində keçirilən konfrans "Xalq Əmanəti" layihəsi çərçivəsində yeni dərc olunan, Mirzə Şəfi Vazehin "Bütün əsərləri"nin elmi ictimaiyyətə təqdimatına həsr olunub.

Humboldt universitetinin professoru Eva Maria Aux çıxışında Mirzə Şəfi Vazehin yaradıcılığından, özünəməxsus poeziyasından danışdı. Vazeh yaradıcılığına rəğbət nümayiş etdirən alman professor, 3 dildə dərc olunan yeni kitabı Mirzə Şəfi Vazehə layiq olduğu ehtiram, eyni zamanda onun oxucularına qiymətli hədiyyə kimi təqdim elədi. Universitetin əsasən şərq ölkələri istiqamətində çalışan müəllim və tələbələrinin toplandığı konfransda həm məzmun, həm də tərtibat baxımından nəfis kitabın təqdimatını yaddaqalan hadisə kimi dəyərləndirib:

Eva Maria Aux, tarixçi alim: "Mənim fikrimcə bu təkcə xoş bir gün kimi deyil, həm də vacib bir hadisə kimi yadda qalacaq. Alman-Azərbaycan mədəniyyətlərarası əlaqələrin möhkəmlənməsinin növbəti nümunəsini Mirzə Şəfi Vazeh və Fridrix fon Bodentştedt vəhdətində görürük. Məncə bu ən uğurlu nümunələrdəndir. Mirzə Şəfi Vazehin kitabının 145 dəfə alman dilində çap olunması faktının özü artıq heç bir şərhə yer saxlamır".

Azərbaycnlı dilçi alim, professor Fəxrəddin Veysəlli isə öz çıxışında auditoriya üçün Mirzə Şəfi Vazeh yaradıcılığının maraqlı nüanslarını izah elədi. Vazeh yaradıcılığının azərbaycan-alman mədəniyyətləri arasında uğurlu körpü rolu oynadığını vurğulayan Fəxrəddin Veysəlli bu işdə Fridrix fon Bodenştedtin də xüsusi rolunu qeyd elədi. Yeri gəlmişkən, eyni fikirləri alman alimlərdən də eşitdik.

Almaniyanın nüfuzlu tarixçi alimlərindən biri, professor Udo Ştaynbax: - "Mirzə Şəfi Vazehin yenidən və belə gözəl şəkildə alman dilində dərc olunması məni çox sevindirdi. Maraqlısı odur ki, almaniyada Vazehin şeirlərini çox adam sevə-sevə oxuyur, amma müəllifi kifayət qədər tanımırlar. Mirzə Şəfi Vazeh və Bodenştedtin yaradıcı əlaqələrindən və bunun hər iki xalqa verdiyi gözəl tohfələrdən də kifayət qədər məlumatları yoxdur. Düşünürəm ki, bu kitab və onun universitetdə təqdimatı bu boşluğu doldurmaqda yardımçı olacaq."

Şübhəsiz ki, söhbət Mirzə Şəfi Vazehin kitabından, onun şeirlərindən gedirsə, deməli təqdimat həm də ədəbi-bədii müştəvidə də olmalı idi. Təşkilatçılar da bunu gözəl bilirdilər və həmin hissəni Berlin "Q Gallery Berlin" incəsənət mərkəzində qonaqlara təqdim elədilər. "Xalq Əmanəti" layihəsinin rəhbəri Rafiq Həşimov kitabın böyük bir kollektivin 5 ildən artıq bir müddətdə çəkdiyi zəhmətin bəhrəsi olaraq ərsəyə gəlməsi barədə məlumat verdi. O, ədibin 225 illiyinə təsadüf edən kitabın layihə çərçivəsində artıq 18-ci nəşr olduğunu dedi və öncəki işlərin nümayiş etdirildiyi stendi qonaqlara təqdim elədi. Mirzə Şəfi Vazeh yaradıcılığıdan bəhs edən natiqlərin çıxışlarından sonra isə növbə poeziya və musiqinin idi. Rafiq Həşimov və alman aktrisa Kristiana Foqt şairin əsərlərini azərbaycan və alman dillərində səsləndirdilər. Vazeh poeziyasını özündə əks etdirən musiqi parçaları da qonaqların çox xoşuna gəldi.

Kristiana Foqt, aktrisa: "Maraqlıdır ki, Vazehin şeirləri mənə Höteni xatırlatdı. Ona görə də sirli şərq ədibinin əsərlərini ilk dəfədən həvəslə və asanlıqla səsləndirdim. Düzü dil, üslub, ritm baxımından mənə bu qədər yaxın olacağını düşünməzdim. Şeirlər ruhumu bütünlüklə vəcdə gətirdi. Etiraf edim ki, bu mənim üçün gözlənilməz oldu."

Çox gözəl ab-havada keçən gecənin yekununda isə yeni nəşrin alman, azərbaycan və rus dillərində olan nüsxələri, eyni zamanda Xalq Bankın "Xalq Əmanəti" layihəsinin digər kitabları hədiyyə olaraq qonaqlara təqdim edildi.

*GÜNEL*

№ 198 (4096) ■ Qiymәti: 40 qәpik

BAKI XӘBӘR

7 NOYABR 2019-cu il

www.baki-xeber.com

# Qәdim Misir mumiyaları portretlәrinin sirri...



**1800-cü illәrdә Misirin Fayum şәhәrindә tapılan vә alimlәr üçün böyük maraq kәsb edәn, habelә qiymәti 1,6 milyard dollara çatan mumiya portretlәrinin sirri açılır.**

Arxeoloqlar bu portretlәrdә kimlәrin tәsvirinin olduğu mәsәlәsini dәqiqlәşdirmәk üçün tәdqiqatlar aparırlar. "AZӘRTAC" bildirir ki, bu tәdqiqatlar zamanı alimlәr, ilk növbәdә, qәdim Misir heykәllәrindә insan fiqurlarının burunlarının qırıq olmasına aydınlıq gәtirmәk istәyirlәr. Tәdqiqatçı Mari Svoboda bu sirrlәri açmağa cәhd göstәrib. O, bu mәqsәdlә Los-Ancelesdәki Getty Muzeyindә olan 16 eksponat üzәrindә araşdırmalar aparıb. Portretlәrdә irigözlü mumiyalanmış insan tәsvirlәri eramızın 100-250-ci illәrinә aid edilir. Svoboda onları tәhlil edәrәk belә qәnaәtә gәlib ki, bu әsәrlәr Qәrbdә tәsviri sәnәt әnәnәlәrinә ciddi tәsir göstәrib. Belә ki, hәmin portretlәrdә insanların hәyat tәrzi, fәrdilәşmә elementlәri, matәm ab-havası vә rәssamlıq üslubu Yunan-Roma vә klassik dünya rәssamlığının әsasını qoyub. Qeyd olunub ki, Misir xәzinәsi ABŞ-a aparılmış bu sәnәt әsәrlәrindәn 1 milyard dollar gәlir әldә edәcәk. bu sahәdә 2013-cü ildәn fәaliyyәt göstәrәn vә 41 institutun yaxından iştirakı ilә 285 rәsm әsәrini tәdqiq edәn APPEAR (Qәdim boyakarlıq, araşdırma, tәhlil vә tәdqiqat paneli) adlı tәdqiqat qrupu mumiya portretlәrinin üçdәbirini tәdqiq edib. Onların bәzi sirrlәri açılsa da, bir çoxu hәlә dә müәmma olaraq qalır. Burada bәzi maneәlәr dә yaranıb: portretlәrin bir çoxu mumiyalardan qoparıldığında yırtılıb, yaxud onların keyfiyyәti çox aşağı olub. Nyu-Yorkun Metropoliya Muzeyinin qәdim Misir üzrә kuratoru Marşa Hill bildirib ki, bu portretlәrin әksәriyyәti kiçik taxta lövhәlәr üzәrindә keyfiyyәti itmiş әsәrlәrdir vә onların tәdqiqi çox mәşәqqәtli işdir. Onun sözlәrinә görә, tәsvir olunan insanların Roma vә ya Misir mәnşәli olmasını da müәyyәn etmәk çәtindir. Belә ki, portretlәrin bir çox Misirin Roma imperiyasının әsarәti altında olduğu illәrdә çәkilib. Bütün bu mәsәlәlәri aydınlaşdırmaq mәqsәdilә APPEAR dünyanın әn tanınmış alimlәrini bir araya gәlmәyә dәvәt edib. Tәdqiqatlar zamanı ultrabәnövşәyi işıqlandırma, infraqırmızı şüalardan, radioqrafiyadan da istifadә olunur. O da qeyd olunub ki, bu cür portretlәrdәn birinin hәrrac qiymәti 1 milyon dollara yaxındır. Tәdqiqatçılar Kaliforniya ştatındakı Norton Simon Muzeyindә nümayiş etdirilәn "Kişi portreti" vә Getty Muzeyindәki "Saqqallı kişinin mumiya portreti" әsәrlәrini tәdqiq edәrkәn onların paltarlarının eyni olması qәnaәtinә gәliblәr. Svoboda bildirib ki, bu portretlәrin müәllifi eyni rәssam ola bilәr vә 2 min il tarixi olan portretlәr Misirә ticarәt yolu ilә Avropadan gәtirilmiş çökә ağacından olan lövhә üzәrindә işlәnilib. Alimlәr hәmin tәsvirlәrin cәmiyyәtdә yüksәk statusu olan adamlara mәxsus olduğu qәnaәtindәdirlәr. Mumiya portretlәrindә insanların hәyatda olduğu vә ya ölümündәn sonra tәsvir edilmәsi mәsәlәsi dә tәdqiq edilir. Hәmin insanların әksәriyyәti 20-40 yaş arasında olanlardır. Onların geniş vә canlı gözlәri dә sübut edir ki, rәssamlar hәmin insanları hәyatda olduğu zaman tәsvir ediblәr. Eyni zamanda, tәdqiqatçılar qeyd edirlәr ki, qәdim dövrdә insanlar bir çox hallarda erkәn ölürdülәr. APPEAR qrupunda çalışan alimlәr qeyd edirlәr ki, qәdim Misirin mumiya portretlәri hәlә bir çox sirrlәri qoruyub saxlayır vә onları aşkar etmәk üçün uzun müddәt gәrgin iş tәlәb olunur.

## Velosipedәbәnzәr kiçik elektrik poçt maşını istehsal edilәcәk



**Tam elektriklә işlәyәn kiçik elektrik sәrnişin maşınlarının istehsalı ideyası çoxdan mövcuddur. Belә ki, "Nissan", "Peugeot", "Renault" vә "Citroen" kimi avtomobil brendlәrinin şәhәrlәrdә havanın çirklәnmәsinin qarşısını almaq üçün yeni layihәlәri artıq tәqdim olunub.**

"AZӘRTAC BBC" telekanalının saytına istinadla xәbәr verir ki, bu istiqamәtdә әn uğurlu sayılan layihә velosipedә bәnzәyәn vә elektriklә işlәyәn EAV-an kiçik nәqliyyat vasitәsinin istehsalıdır. Oksford Universitetindә yerlәşәn EAV startapının hazırladığı bu maşınlar mexaniki-elektrik sistemi vә yüngül çәkisi ilә fәrqlәnir. Dördtәkәrli velosipedә bәnzәyәn bu maşında elektriklә işlәyәn motor vә bağlamaları daşımaq üçün kiçik salon var. Onlardan poçt daşımaları üçün istifadә edilmәsi nәzәrdә tutulur. Cәmi 250 vatt gücündә motoru olan EAV-an maşınları saatda 30 kilometr sürәtlә bir cәrәyan yüklәnmәsi hesabına 90 kilometr mәsafә qәt edә bilir. Sürәti artırmaq üçün velosipeddә olduğu kimi, pedallarla çarxı fırlatmaq lazımdır. Yeni maşının batareyasını yüklәmәk üçün onun 13 amper olan rozetkasını 240 volt cәrәyana qoşmaq kifayәtdir.

## Elan

Şәki rayonu, Böyük Dәhnә kәnd sakini Nәbiyev Habil Hamil oğlunun adına verilmiş torpaq sahәsinin reyestrdәn çıxarışı vә torpaq sahәsinin planı vә ölçüsü sәnәdi itdiyi üçün etibarsız sayılır.

Şәki rayonu, Kiş kәnd sakini Mәmmәdov Hәsәn Zahid oğlunun vә ailә üzvlәrinin adına verilmiş JN: 707 saylı torpağa mülkiyyәt hüququna dair dövlәt aktı itdiyi üçün etibarsız sayılır.

Bayramova Vәfa Habil qızına Bakı Mühәndislik Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Mәmmәdli Kamran Aqil oğluna Bakı Mühәndislik Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Müsbәt tendensiyaların tәsiri o qәdәr dә güclü olmasa da, qarşınıza qoyduğunuz mәqsәdә çatmağınıza mane olmayacaq. Onlara da dәstәk olmağa vә ruh yüksәkliyini artırmağa çalışın.



**Buğa** - Bu gün risk etmәyә meyllisiniz. Әlbәttә, bu, çox cәlbedicidir, amma unudursunuz ki, bu, hәm dә tәhlükәli ola bilәr. Ehtiyatı nә qәdәr tez-tez yada salsanız, problemlәrinizin sayı bir o qәdәr az olar.



**Әkizlәr** - Nә ilә mәşğul olursunuz olun, amma bircә tәlәsmәyin, çox xırda, amma böyük vә xoşagәlmәz nәticәlәri olan sәhvlәr edә bilәrsiniz. Bundan başqa, pis tәsir altına düşә bilәrsiniz.



**Xәrçәng** - Bu, sizin gününüzdür. Әlinizә düşәn imkandan istifadә edәrәk hansısa vacib vә mürәkkәb bir layihәnin üzәrindә işlәmәyә başlaya bilәrsiniz: öhdәsindәn gәlmәk asan olacaq.



**Şir** - Hәm özünüzlә, hәm әtrafınızla barışmısınız, bu isә bir çox problemlәrin hәllini asanlaşdırır. Çox maraqlı işgüzar tәkliflәr almağınız mümkündür, onları uzun müddәt düşünmәdәn qәbul edә bilәrsiniz.



**Qız** - Bәxtiniz gәtirmir. Başladığınız işlәr, gözlәdiyinizin әksinә olaraq mürәkkәblәşir, bir çox vacib mәsәlәlәrin hәlli qeyri-müәyyәn müddәtәdәk tәxirә düşür. Rәhbәrliklә fikir ayrılıqları mümkündür.



**Tәrәzi** - Enerjiniz bir qәdәr azdır, tez yorulursunuz. Odur ki, vacib vә tәcili işlәrinizi günün birinci yarısına planlaşdırın. Tәәssüf ki, yumor hissiniz bu gün kütlәşib, söhbәti zarafata çevirmәk alınmır.



**Әqrәb** - Yaxşı olar ki, bu günә heç bir vacib iş planlaşdırmayasınız. Bu gün ulduzlar sizi dәstәklәmir vә yalnız öz gücünüzә arxalanmalı olacaqsınız. Hәmkarlarınızla fikir ayrılıqları, rәhbәrliklә mübahisәlәr ola bilәr.



**Oxatan** - İstәnilәn danışıqlar bu gün rahat keçir. Heç sevmәdiyiniz insanlarla ünsiyyәt, nә qәdәr qәribә olsa da, adәti üzrә olduğu kimi xoşagәlmәz deyil, әksinә, faydalıdır. Yaradıcı planlarınızı hәyata keçirmәyә başlaya bilәrsiniz.



**Oğlaq** - Bәxtiniz gәtirir, hәm dә çox. Uzun müddәt gücünüzün yetmәdiyi işlәrin öhdәsindәn bu gün asanlıqla gәlirsiniz. Evdәki dәyişikliklәr üçün dә uğurlu gündür. Alış-veriş üçün dә uğurlu gündür.



**Dolça** - Hadisәlәrin gedişi bir qәdәr lәngiyir, bu isә sizi heç dә sevindirmir, axı, tezliklә qәlәbәnizi bayram etmәyi planlaşdırırdınız. İstәnilәn qәti hәrәkәt vә әtrafınızdakılara tәzyiq göstәrmәk qәtiyyәn mәslәhәt deyil.



**Balıqlar** - Uğurlu gündür, enerjiniz, özünüzә inamınız, qәtiyyәtiniz çoxdur. Bunun sayәsindә yığılıb qalan problemlәri hәll etmәk, sizә qarşı olan qüvvәlәrә qarşı (bunlar günün ortasında daha da güclәnәcәk) vuruşmaq asan olur.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Hindistanlı siyasәtçi hind inәklәrini elә tәsәvvür etdi ki... "Xarici inәklәrә ibadәt etsәniz..."



**Hindistanlı siyasәtçi Dilip Qoş açıqlaması ilә dünyanın diqqәtini üzәrinә çәkib.**

"Axşam.az" bildirir ki, o, Hindistandakı inәklәrin südündә "qızıl" olduğunu iddia edib. "Bizim inәklәrin bәdәnindә xüsusi damar var. Bu damar günәş şüaları sayәsindә süddәn qızıl yaradır. İnәklәrimizin südündәn içәnlәr varlı vә sağlam olar". Politoloq, eyi zamanda, bildirib ki, xarici inәklәrә ibadәt etmәk ölkәyә fәlakәt gәtirә bilәr. Qoşun sözlәri sosial şәbәkәdә әlә salınıb. İzlәyicilәr onu "ağıldan kәm" adlandırıblar.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.